YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 avqust 2026-cı il, cümə axşamı
№ 138 (7205)
Qiymәti 60 qәpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan - İsveçrə: Yeni mərhələyə yüksələn çoxvektorlu əməkdaşlıq



Bax səh. 3

## Bakı-Şürix münasibətlərində praqmatik əməkdaşlıq modeli

Bax səh. 3

## Azərbaycanın qlobal gündəliyi - verilən mesajlar...

### Bakı sülhün, əməkdaşlığın və inkişafın beynəlxalq platforması kimi



Bax səh. 2

## Senzurasız 28 il...

### Azərbaycanda azad mətbuat dönəmi

Bax səh. 5

### Nyu-York Universitetinin professoruna açıq məktub

Bax səh. 5

### 7-ci görüş...

İsrail və Livan nümayəndələri arasında növbəti "Roma raundu"

Bax səh. 6

### Vətənlə bağları möhkəmləndirən layihə

Bax səh. 8

## NATO-nun yeni təhlükəsizlik fəlsəfəsi



Bax səh. 7

## İlk və son "sınaq"dan 81 il ötür



Bax səh. 6



# Azərbaycanın qlobal gündəliyi - verilən mesajlar...

## Bakı sülhün, əməkdaşlığın və inkişafın beynəlxalq platforması kimi

Dünyaya tolerantlıq nümunəsi kimi təqdim olunan, multikultural dəyərlərə hörməti ilə seçilən Azərbaycan müasir dünyada qlobal dialoqun inkişafında hər zaman əhəmiyyətli rol oynayır. Geosiyasi gərginliyin artdığı, enerji təhlükəsizliyi, iqlim dəyişikliyi, miqrasiya, dini radikalizm və mədəniyyətlərarası qarşıdurmaların dünya gündəmini müəyyənləşdirdiyi bir dövrdə Azərbaycan konstruktiv təşəbbüsləri ilə seçilən ölkələrdən biri kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu ölkəmizi təkcə Cənubi Qafqazın deyil, daha geniş Avrasiya məkanının etibarlı tərəfdaşı və mühüm dialoq platformasına çevirib.

Son illər Azərbaycanda keçirilən beynəlxalq sammitlər, qlobal forumlar, yüksək səviyyəli konfranslar və müxtəlif beynəlxalq təşkilatların toplantıları göstərir ki, Bakı artıq regional paytaxt statusunu aşaraq qlobal əhəmiyyətli qərarların müzakirə olunduğu mühüm siyasi, iqtisadi və humanitar mərkəzə çevrilib. Bu proses son 6 ayda da davam edib. Bu tədbirlərdə müzakirə olunan məsələlər yalnız Azərbaycanın deyil, bütövlükdə beynəlxalq ictimaiyyətin maraqlarına xidmət edir. Mədəniyyətlərarası dialoqdan enerji təhlükəsizliyinə, yaşıl inkişafdan şəhərsalma strategiyalarına qədər geniş spektri əhatə edən tədbirlər ölkəmizin qlobal proseslərə təsir imkanlarının artdığını nümayiş etdirir.

Azərbaycanın təşəbbüsü ilə formalaşan əməkdaşlıq platformaları ölkəmizin sülhə, qarşılıqlı hörmətə və beynəlxalq hüququn prinsiplərinə əsaslanan siyasətinin məntiqi nəticəsidir. Tolerantlıq və multikulturalizm ənənələrinin dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilməsi, müxtəlif din və mədəniyyət nümayəndələrinin dinc yanaşı yaşadığı bir cəmiyyət modelinin formalaşdırılması Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirib. Bununla yanaşı, ölkəmiz qlobal enerji təhlükəsizliyinin mühüm bir parçası kimi çıxış etməklə etibarlı tərəfdaş statusunu təsdiqləyir, yaşıl enerji gündəliyinin təşviqinə mühüm töhfələr verir və işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi müasir bərpa və quruculuq layihələri ilə yeni inkişaf modelini dünyaya nümayiş etdirir. Bütün bunlar göstərir ki, Bakı bu gün təkcə Azərbaycanın paytaxtı deyil, qlobal dialoqun, əməkdaşlığın və davamlı inkişaf ideyalarının formalaşdığı mühüm beynəlxalq mərkəzlərdən birinə çevrilib.

**Bakıdan dünyaya çağırış: dialoq, əməkdaşlıq və ortaq məsuliyyət**

Müasir beynəlxalq münasibətlər sistemində qarşıdurmaların, geosiyasi gərginliyin və qlobal risklərin artdığı bir şəraitdə dövlətlərin verdiyi mesajlar xüsusi əhəmiyyət daşıyır. Azərbaycan isə son illərdə ev sahibliyi etdiyi beynəlxalq tədbirlər vasitəsilə dünyaya mühüm mesajlar təqdim edir. Bakıda keçirilən qlobal forumlar, beynəlxalq konfranslar və yüksək səviyyəli görüşlər yalnız diplomatik platforma deyil, həm də sülh, əməkdaşlıq və qarşılıqlı etimadın təşviq edildiyi mühüm dialoq məkanına çevrilib.

Bu mesajların əsas xüsusiyyəti onların nəzəri yanaşmadan deyil, Azərbaycanın real siyasi təcrübəsindən qaynaqlanmasıdır. Müxtəlif mədəniyyətlər, dinlər və siyasi baxışlar arasında körpü rolunu oynayan Azərbaycan çoxtərəfli əməkdaşlığın praktik modelini nümayiş etdirir. Məhz buna görə də Bakıda səsləndirilən çağırışlar beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir.

### Prezident İlham Əliyevin bu ilin 6 ayında səsləndirdiyi prioritetlər...

Azərbaycanın təşəbbüsü ilə keçirilən beynəlxalq tədbirlər göstərir ki, qlobal problemlərin həlli qarşıdurmadan deyil, dialoqdan, etimaddan və ortaq məsuliyyətdən keçir. Bu yanaşma ölkənin beynəlxalq nüfuzunu daha da gücləndirməklə yanaşı, Bakını qlobal fikir mübadiləsinin və konstruktiv əməkdaşlığın aparıcı mərkəzlərindən birinə çevirir. Məsələn, ilin ilk rübündə Bakıda baş tutan “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusunda XIII Qlobal Bakı Forumunda Prezident İlham Əliyev Azərbaycanın müasir tarixində yaşadığı təcrübələri dünya ilə bölüşdü. Dövlət başçısı bildirdi ki, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik və sabitlik əsas amillər olmalıdır və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik. Dövlət başçısı deyib: “Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur.

- Daha sonra 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

- Üçüncü təcrübə isə sülh təcrübəsidir - sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur...”

**Bakı qlobal enerji əməkdaşlığının mərkəzinə çevrilib**

Sirr deyil ki, enerji təhlükəsizliyi iqtisadi məsələ olmaqla yanaşı, həm də beynəlxalq təhlükəsizlik və siyasi sabitliyin əsas sütunlarından birinə çevrilib. Məhz belə bir şəraitdə Azərbaycanın təşəbbüsü ilə formalaşan əməkdaşlıq platformaları müxtəlif maraqlara malik dövlətləri ortaq məqsəd ətrafında birləşdirən səmərəli dialoq mühiti yaradır. Bakı bu gün yalnız enerji resurslarını dünya bazarına çıxaran paytaxt deyil, eyni zamanda enerji siyasətinin gələcəyinin müzakirə olunduğu, strateji qərarların və uzunmüddətli tərəfdaşlıqların formalaşdığı beynəlxalq mərkəz kimi çıxış edir.

Azərbaycanın ardıcıl və etibarlı tərəfdaş kimi nümayiş etdirdiyi mövqe, həyata keçirdiyi iri enerji layihələri və çoxtərəfli əməkdaşlığa verdiyi töhfələr ölkənin qlobal enerji arxitekturasında rolunu daha da gücləndirib. Bakı platformasında aparılan müzakirələr göstərir ki, enerji təhlükəsizliyinin təmin olunması yalnız resursların mövcudluğu ilə deyil, dövlətlər arasında etimadın, koordinasiyanın və qarşılıqlı məsuliyyətin möhkəmləndirilməsi ilə mümkündür. Bu baxımdan, Azərbaycan enerji diplomatiyasını praktik nəticələrə çevirən və beynəlxalq əməkdaşlığı təşviq edən etibarlı aktor kimi öz mövqeyini getdikcə daha da möhkəmləndirir. Bu ilin ilk rübündə Bakıda baş tutan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında Prezident İlham Əliyev bu məsələyə toxunaraq qeyd edib: “Hər zaman olduğu kimi, biz Məşvərət Şurasının illik iclasında ötən iclasdan bəri görülmüş işləri nəzərdən keçirir, enerji təhlükəsizliyi və dayanıqlı enerji təchizatı sahələrində əməkdaşlığımızın və tərəfdaşlığımızın gücləndirilməsi ilə bağlı gələcək birgə addımlarımızı planlaşdırırıq.

Bu təşəbbüsün davamlılığını nümayiş etdirməsindən artıq on ildən çox vaxt keçir və 12 il əvvəl bu təşəbbüsə başladığımız dövrlə müqayisədə birlikdə - məhz birlikdə toplaşmağın və enerji təhlükəsizliyinə dair mühüm məsələləri müzakirə yolu ilə həll etməyin nə dərəcədə vacib olduğunu indi daha aydın şəkildə anlayırıq.

Xüsusilə son 12 ilə nəzər saldıqda müxtəlif ssenarilərin, çətinliklərin, mürəkkəbliklərin və problemlərin şahidi oluruq. Lakin bütün bu çətinliklərə və regionumuzda yaşanan olduqca ağır dövrlərə baxmayaraq, Azərbaycan və tərəfdaşları tərəfindən bir sıra ölkələrin enerji təhlükəsizliyinin təmin olunması həqiqətən də gündəlik həyatımızda hiss etdiyimiz reallığa çevrilmişdir. Ötən il Bakıda sonuncu görüşümüzdən bəri görülən işlərə nəzər yetirdikdə yenə də irəliləyişin şahidi oluruq. Hər dəfə biz məhz irəliləyişdən danışırıq”.

Eyni fikirləri bu ilin iyununda Bakıda baş tutan Bakı Enerji Həftəsinə də şamil etmək olar. Enerji həftəsi ərzində beynəlxalq enerji sektorunu təmsil edən fərqli şirkətlər, qruplar özlərinin təcrübələrinin mübadiləsinə nail olur, yeni təcrübələr qazanılır. Bu da Bakının qlobal enerji dialoquna mühüm bir töhfəsidir. Təsadüfi deyil ki, Bakı Enerji Həftəsi ilçə bağlı Prezident İlham Əliyevə məktubunda ABŞ Prezidenti Donald Tramp bu tədbirin əhəmiyyətini xüsusi qeyd edib. Tədbirin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu: “Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan “Bakı Enerji Həftəsi” adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid “Şahdəniz” müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub. Bu bir daha göstərir ki, “Bakı Enerji Həftəsi” qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir”.

**WUF13: Dayanıqlı inkişaf gündəliyində Bakının yeri**

Azərbaycan paytaxtı bu ilin mayında Ümumdünya Şəhərsalma Forumuna (WUF13) ev sahibliyi etdi. Mayın 17-dən 22-dək davam edən tədbir Azərbaycan paytaxtının böyük miqyaslı beynəlxalq forumları qəbul etmə qabiliyyətini nümayiş etdirməklə yanaşı, urban idarəetmə sahəsində yeni yanaşmaların tətbiqi üçün real platforma kimi yadda qaldı. Tədbirə ev sahibliyi ölkəmizin inklüzivlik, əlçatanlıq və dayanıqlı inkişaf prinsiplərinə verdiyi önəmi də ortaya qoydu. Qeyd edək ki, BMT-nin İnsan Məskənləri Proqramı (UN-Habitat) tərəfindən təşkil edilən forum şəhərlərin gələcəyi, inklüziv inkişaf, iqlim dəyişikliklərinə uyğunlaşma və sosial ədalət kimi aktual məsələlərin müzakirə olunduğu beynəlxalq dialoq məkanıdır. Eyni zamanda, forum yalnız fiziki məkanın təşkilini deyil, həm də sosial ədalət, bərabər iştirak və universal dizayn prinsiplərinin inteqrasiyasını nümayiş etdirir. Ümumdünya Şəhərsalma Forumunun paytaxtımızda keçirlməsinə qərar verilməsi isə beynəlxalq birliyin ölkəmizə olan böyük inamının daha bir ifadəsi kimi yadda qaldı. Belə ki, Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının Azərbaycanda keçirilməsi ölkənin beynəlxalq urban siyasəti və qlobal əməkdaşlıq proseslərində artan rolunun göstəricisidir. Bu kontekstdə Bakı həm Şərq, həm də Qərb şəhər inkişaf modellərinin kəsişməsində yerləşən dinamik urban mərkəzi kimi təqdim olunur. Azərbaycan unikal şəhərsalma təcrübəsinə malik olan ölkədir. Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub. Bu, həmçinin ölkəmizin memarlığında əks olunub: “Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk”.

Dövlət başçısı qeyd etdi ki, Azərbaycanın bir çox yerlərində şəhərsalma çox sürətli inkişaf edir: “Birmənalı olaraq, bu cür mühüm toplantı və BMT-dən olan dostlarımızın, səfərə gələn çoxsaylı qonaqların ekspert bacarıqları bizə daha çox öyrənmək, bir-birimizdən əldə etmək, müsbət təcrübə ilə tanışlıq üçün və həmçinin səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq”.

Beləliklə, 180-dən çox ölkədən onminlərlə insanın tədbirdə iştirakı Azərbaycanın beynəlxalq nüfuzunu bir daha təsdiqlədi - tədbirin yekununda isə “Global South NGO Platform”un təşəbbüsü və təşkilatçılığı ilə WUF13-lə bağlı “Bakı Bəyannaməsi” hazırlandı. “Bakı Bəyannaməsi”ni 103 ölkədən 569 QHT təmsilçisi imzaladı. WUF13 çərçivəsində Bakıda toplaşan vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Azərbaycanı WUF13-ün uğurlu təşkilinə, beynəlxalq şəhər dialoquna və əməkdaşlığa verdiyi mühüm töhfə münasibətilə təbrik etdilər. Bəyanatda qeyd olundu ki, forumun tarixində ilk dəfə keçirilən Liderlər Sammiti şəhər inkişafını yeni siyasi müstəviyə qaldıraraq, beynəlxalq gündəliyin prioritetləri sırasına daxil etdi. “Dünyanın müxtəlif yerlərində urbisid, kultursid və ekosidin təzahür etdiyi bir dövrdə Azərbaycanın postmünaqişə dövründəki bərpa və yenidənqurma təcrübəsi beynəlxalq ictimaiyyət üçün vacib metodoloji nümunədir. Bu xüsusda biz “Azərbaycan təcrübəsi”nin dünyanın postmünaqişə bölgələrinin yenidən qurulmasında beynəlxalq etalon və bu sahədə forumlarda əsas istinad kimi qəbul olunmasını təklif edirik”,-deyə vurğulanan bəyanatda bildirilib ki, WUF tarixində ilk dəfə Bakıda keçirilmiş QHT Forumu WUF prosesində vətəndaş cəmiyyətinin iştirakı üçün yeni bir mərhələdir.

**Bakı qlobal həmrəyliyin ünvanına çevrilir**

Beləliklə, son altı ayda Azərbaycanda keçirilən beynəlxalq tədbirlər bir daha sübut etdi ki, Bakı artıq yalnız regional diplomatiyanın deyil, qlobal əməkdaşlıq və dialoqun aparıcı mərkəzlərindən biridir. Dünyada geosiyasi qarşıdurmaların, enerji böhranlarının, iqlim dəyişikliklərinin və təhlükəsizlik çağırışlarının artdığı bir dövrdə Azərbaycanın verdiyi mesajlar praktik təcrübəyə, etibarlı tərəfdaşlığa və məsuliyyətli siyasətə əsaslanır. Məhz buna görə də Bakıda keçirilən forumlar və beynəlxalq toplantılar təkcə fikir mübadiləsi üçün platforma deyil, həm də yeni əməkdaşlıq mexanizmlərinin formalaşdığı mühüm siyasi məkan kimi çıxış edir.

Azərbaycanın təşəbbüsü ilə keçirilən Qlobal Bakı Forumu, Cənub Qaz Dəhlizi Məşvərət Şurası, Bakı Enerji Həftəsi və Ümumdünya Şəhərsalma Forumu kimi tədbirlər ölkəmizin beynəlxalq gündəliyin əsas istiqamətlərində fəal rol oynadığını nümayiş etdirdi. Bu tədbirlər vasitəsilə Bakı sülhün, enerji təhlükəsizliyinin, yaşıl inkişafın, dayanıqlı şəhərsalmanın və çoxtərəfli əməkdaşlığın təşviq olunduğu etibarlı platformaya çevrildi.

Ən önəmlisi isə odur ki, Azərbaycanın təqdim etdiyi model nəzəri çağırışlardan deyil, real nəticələrdən qaynaqlanır. İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, enerji diplomatiyasında etibarlı tərəfdaş kimi qazandığı nüfuz, multikultural dəyərlərə sadiqliyi və beynəlxalq hüquqa əsaslanan xarici siyasəti ölkəmizin qlobal etimad kapitalını daha da artırır. Bu gün Bakı təkcə mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edən şəhər deyil, həm də müxtəlif maraqları uzlaşdıran, dialoqu təşviq edən və ortaq məsuliyyət anlayışını gücləndirən strateji mərkəzdir. Bütün bunlar göstərir ki, Azərbaycanın beynəlxalq nüfuzu bundan sonra da yüksələcək, Bakı isə qlobal əməkdaşlığın və yeni təşəbbüslərin formalaşdığı əsas ünvanlardan biri kimi mövqeyini daha da möhkəmləndirəcək.

# Azərbaycan - İsveçrə: Yeni mərhələyə yüksələn çoxvektorlu əməkdaşlıq



Müstəqil Azərbaycan həm coğrafi yerləşməsi, həm də xoş məramа əsaslanan xarici siyasəti ilə Qlobal Şərqlə Qlobal Qərb arasında körpülər yaradan dövlət qismində çıxış edir. Əlamətdar haldır ki, respublikamızın davamlı həmrəylik təşəbbüsləri, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsini hədəfləyən fəaliyyətləri geniş İslam coğrafiyasında olduğu kimi, Avropa məkanında da yüksək dəyərləndirilir. Azərbaycan Avropa İttifaqının üzvü olmasa da, "qoca qitə"nin ayrı-ayrı dövlətləri ilə sıx partnyorluq münasibətləri qurmağa nail olub ki, onlardan biri də İsveçrədir.

Azərbaycan və İsveçrə arasında sıx və dinamik inkişaf edən əlaqələr mövcuddur. İkitərəfli münasibətlər uzun illər qarşılıqlı hörmət, etimad və siyasi dialoq prinsipləri əsasında inkişaf edərək çoxşaxəli əməkdaşlıq modelinə çevrilib. Qarşılıqlı etimada əsaslanan münasibətlər siyasi dialoqdan iqtisadi əməkdaşlığa, qarşılıqlı investisiyalardan regional və beynəlxalq məsələlər üzrə tərəfdaşlığa qədər geniş spektri əhatə edir. Diqqətçəkən əsas məqam ondan ibarətdir ki, hər iki tərəf bir-birinə qarşılıqlı rəğbət bəsləyir və əlaqələrin inkişafına böyük maraq göstərir. Bununla bağlı İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassisin bugünlərdə respublikamıza səfəri çərçivəsində keçirilən tədbirlərdə və qonağın yerli mətbuata verdiyi müsahibəsində növbəti dəfə önəmli fikirlər ifadə olunub.

## Müntəzəm siyasi dialoq

Azərbaycanla İsveçrə arasında davamlı şəkildə inkişaf edən çoxvektorlu əməkdaşlığın əsas təkanverici amili müntəzəm xarakter alan siyasi dialoqdur. İki ölkə arasında diplomatik münasibətlərin qurulması 35 ilə yaxınlaşır. Bu isə əlaqələrin keçdiyi yola nəzər salmaq, əldə olunan nəticələri qiymətləndirmək və gələcək əməkdaşlıq istiqamətlərini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. İsveçrə Konfederasiyasının Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassisin Azərbaycana səfəri də əlaqələrin dinamik xarakter aldığını göstərir.

İllər ərzində həyata keçirilən çoxsaylı qarşılıqlı səfərlər və yüksəksəviyyəli görüşlər iki ölkənin bir-birinin mövqelərini daha yaxından öyrənməsinə və ortaq maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparmasına imkan yaradıb. Qeyd edək ki, 2000-ci ilin yanvarında Azərbaycan Prezidenti Heydər Əliyev Davosda keçirilən Beynəlxalq iqtisadi forumun işində iştirak edib və səfər çərçivəsində İsveçrə Prezidenti A.Oqi və maliyyə departamentinin rəhbəri (Maliyyə Naziri) K.Villiqerlə görüşüb, digər məsələlərlə yanaşı, keçmiş Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini də müzakirə edib. Sonrakı mərhələdə isə Prezident İlham Əliyev dəfələrlə İsveçrədə işgüzar və rəsmi səfərlərdə olub, dost ölkənin ev sahibliyi ilə keçirilən Davos Forumunda müntəzəm qaydada iştirak edib.

Azərbaycan ilə İsveçrə arasında diplomatik münasibətlər 21 yanvar 1992-ci ildə qurulub. İsveçrə Azərbaycanın müstəqilliyini 23 dekabr 1991-ci ildə tanıyıb. Berndəki səfirliyimiz isə 6 oktyabr 2004-cü ildə təsis olunub. İqnasio Kassisin yerli mətbuata müsahibəsində qeyd etdiyi kimi, İsveçrənin Azərbaycanın müstəqilliyini erkən tanıması ölkələr arasında sıx və davamlı münasibətlərin təməlini qoyub.

İqnasio Kassisin səfəri siyasi dialoqu dərinləşdirmək, iqtisadi əməkdaşlığı gücləndirmək və ortaq maraq doğuran regional və beynəlxalq məsələləri müzakirə etmək üçün gözəl fürsətdir. Çünki Azərbaycan üçün İsveçrə Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərindən biri olmaqla yanaşı, beynəlxalq diplomatiyada xüsusi nüfuza malik ölkədir. İsveçrənin neytrallıq siyasəti, beynəlxalq vasitəçilik və dialoq ənənələri, çoxtərəfli diplomatiyada fəal iştirakı onu regional və qlobal məsələlər üzrə mühüm tərəfdaşa çevirir. Azərbaycan isə Cənubi Qafqazın aparıcı dövlətlərindən biri kimi Avropa ilə Asiya arasında nəqliyyat və enerji əlaqələrinin inkişafında mühüm rol oynayır. Bu baxımdan qarşılıqlı siyasi maraqların genişlənməsi iki ölkə arasında əməkdaşlığın yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmamasına, regional və beynəlxalq gündəliyin müxtəlif məsələlərini də əhatə etməsinə şərait yaradır. Əsas məqsədi siyasi dialoqu dərinləşdirmək olan səfər, həmçinin münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu sübut edir.

## Beşinci ticarət tərəfdaşı

Azərbaycan və İsveçrə hökumətləri siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq iqtisadi sahədə əməkdaşlığı müxtəlif istiqamətlərdə genişləndiririlər. Azərbaycan Hökuməti və İsveçrə Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiya 2003-cü ildə təsis edilib. Artıq 20 ildən çoxdur fəaliyyət göstərən bu platforma iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasında və investisiya mühitinin genişləndirilməsində mühüm rol oynayır. İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassisin müsahibəsində bildirdiyi kimi, birgə İqtisadi Komissiya ikitərəfli münasibətlərimizin əsas alətidir. "Bu, bizə konkret imkanları müəyyən etməyə, biznes mühitini yaxşılaşdırmağa, İsveçrə və Azərbaycan şirkətlərinin, xüsusilə də neft və qazdan başqa digər sektorlarda bir-birinə yaxınlaşmasına imkan yaradır.

Sentyabrın 15-də İsveçrədə keçiriləcək 10-cu iclas biznes-forum ilə birlikdə bu əməkdaşlığı dərinləşdirmək və yeni tərəfdaşlıqlar qurmaq üçün fürsət yaradacaq", - deyə İsveçrə rəsmisi yerli KİV-ə müsahibəsində vurğulayıb.

Diqqətçəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, dost ölkələr qarşılıqlı investisiya qoyuluşunu artırmaqla iqtisadi əlaqələrini davamlı şəkildə genişləndirirlər. Son 30 il ərzində İsveçrədən Azərbaycana 1,6 milyard ABŞ dolları, Azərbaycandan isə İsveçrə iqtisadiyyatına 2,3 milyard ABŞ dolları həcmində investisiya yatırılması iki ölkə arasında investisiya əməkdaşlığının kifayət qədər balanslı xarakter daşıdığını göstərir. Bu rəqəmlər həm də Azərbaycan və İsveçrə biznes dairələri arasında qarşılıqlı marağın yüksək olduğunu nümayiş etdirir. Azərbaycanın İsveçrəyə investisiya yatırması ölkənin xarici bazarlarda mövqeyinin möhkəmləndirilməsi və iqtisadi əlaqələrin şaxələndirilməsi baxımından əhəmiyyətlidir. İsveçrə investisiyalarının Azərbaycandakı mövcudluğu isə ölkənin biznes mühitinə və uzunmüddətli iqtisadi potensialına olan marağın və inamın göstəricisidir. Son 20 ildən artıq müddətdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında həyata keçirilən mühüm islahatlar sayəsində Azərbaycanın investisiya cəlbediciliyi əhəmiyyətli dərəcədə artıb. Ölkəmizdə xarici investorların maraqları möhkəm hüquqi baza ilə qorunur. Eyni zamanda, uzunmüddətli sabitlik, cəmiyyətdəki tolerantlıq mühiti, Avrasiyada əlverişli coğrafi yerləşmə xarici investorların respublikamıza marağını artırır. O cümlədən dost İsveçrəni təmsil edən investorlar da ölkəmizin bu üstünlüklərindən bəhrələnməyə çalışır və böyük inamla sərmayələrini Azərbaycana yönəldirlər.

İsveçrənin Azərbaycan ixracı üçün əhəmiyyətli bazarlardan birinə çevrilməsi də iqtisadi münasibətlərin inkişafında mühüm amildir. Xüsusilə enerji sektorunun aparıcı mövqeyi qorunmaqla yanaşı, qeyri-neft sektorunda ixrac imkanlarının genişləndirilməsi qarşıdakı dövrdə əməkdaşlığın əsas istiqamətlərindən biri ola bilər. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi siyasəti fonunda kənd təsərrüfatı, qida sənayesi, logistika, nəqliyyat, informasiya texnologiyaları, rəqəmsal iqtisadiyyat və innovasiya kimi sahələrdə əməkdaşlıq üçün geniş imkanlar mövcuddur.

İki ölkə arasında iqtisadi münasibətlərin dinamikasını əks etdirən əsas göstəricilərdən biri ticarət dövriyyəsidir. İsveçrə Azərbaycanın beşinci ən mühüm ticarət tərəfdaşıdır. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, 2025-ci ildə İsveçrə ilə ticarət dövriyyəmiz 1 milyard 773 milyon ABŞ dolları təşkil edib. Bu isə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində 3,6 faizlik pay deməkdir. Ticarət dövriyyəsində 2024-cü ilə müqayisədə ciddi artım qeydə alınsa da, iqtisadi münasibətlərin potensialı mövcud göstəricilərdən daha böyükdür. Həmçinin Azərbaycanda 110 İsveçrə şirkətinin qeydiyyatdan keçməsi, onlardan 87-nin aktiv fəaliyyət göstərməsi iki ölkənin biznes əlaqələrinin də real iqtisadi əsaslara söykəndiyinin açıq nümunəsidir.

İki ölkə arasında uzun illər ərzində Bretton Vuds institutları çərçivəsindəki əməkdaşlıq münasibətlərin xüsusi bir istiqamətidir. Azərbaycanın İsveçrənin rəhbərlik etdiyi qrupda üzvlüyü etimadın göstəricisidir. Bu etibarlı və uzunmüddətli tərəfdaşlıq həm də müntəzəm siyasi dialoqa, koordinasiyalı fəaliyyətə və texniki əməkdaşlığa şərait yaradır.

Eyni zamanda, Azərbaycan və İsveçrə arasında münasibətlər regional sabitlik, nəqliyyat bağlantıları, innovasiya və dayanıqlı inkişaf kimi qlobal gündəlik məsələlər ətrafında da inkişaf edən çoxşaxəli tərəfdaşlıq xarakteri daşıyır. Qarşılıqlı siyasi iradə və mövcud iqtisadi potensialın daha səmərəli şəkildə səfərbər edilməsi isə növbəti illərdə bu tərəfdaşlığın daha da dərinləşməsinə və yeni məzmun qazanmasına imkan yarada bilər. Mütəxəssislərin qənaətinə görə, gələcək mərhələdə Azərbaycan - İsveçrə iqtisadi münasibətlərinin ənənəvi enerji əməkdaşlığından kənara çıxaraq, rəqəmsal transformasiya, yaşıl texnologiyalar, logistika, bankçılıq, müxtəlif maliyyə xidmətləri və insan kapitalının inkişafı sahələrinə doğru genişlənməsi tam realdır.

## Enerji və nəqliyyat sahələrində əməkdaşlığa artan maraq

Azərbaycan və İsveçrə hazırda dünyada izlənilən gərgin geosiyasi və geoiqtisadi proseslər fonunda aktuallığı heç vaxt olmadığı qədər artan enerji və nəqliyyat kimi strateji istiqamətlərdə əməkdaşlıqda üst-üstə düşən mövqe sərgiləyirlər. Enerji seqmenti ölkələrimniz arasında iqtisadi sahədə əməkdaşlığın ənənəvi və əsas istiqamətini təşkil edir. Zəngin resurslara malik olan Azərbaycan etibarlı tərəfdaş olaraq indiki mürəkkəb, ziddiyyətli qlobal şəraitdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verir. Respublikamızın üstünlüyünü şərtləndirən yalnız resurslar deyil. Məlumdur ki, hazırda bir sıra tranzit marşrutları təhlükə altındadır və "qoca qitə"nin enerji təchizatında müəyyən problemlər yaranıb. Belə bir şəraitdə Azərbaycan özünün şaxələndirilmiş nəql marşrutları ilə Avropanın köməyinə çatır. Zamanında manevələrə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin, Cənub Qaz Dəhlizinin inşasına nail olması Azərbaycanın və onun Liderinin strateji baxışlarının ifadəsidir. İndi hamı bu nəql marşrutlarının Avropa üçün nə qədər zəruri imkanlar yaratdığını təsdiqləyir və ölkəmizin əvəzolunmaz rolu Avropa Komissiyasında təqdir olunur. Eyni zamanda, xüsusi olaraq vurğulanmalıdır ki, Azərbaycan fürsətçil ölkə deyil. Respublikamızın davamlı enerji siyasəti ədalət prinsipinə əsaslanır. İndiyədək elə bir forsmajor hal olmayıb ki, Azərbaycan müqavilə şərtlərini pozsun və istehlakçılara əlavə şərtlər diktə etsin. Buna görə də digər partnyorlar kimi, İsveçrə də Azərbaycanın konstruktiv rolunu və Avropa ilə etibarlı enerji əməkdaşlığına sadiqliyini yüksək qiymətləndirir. "Bugünkü geosiyasi kontekstdə enerji mənbələrinin və təchizat marşrutlarının şaxələndirilməsi Avropanın təhlükəsizliyi və dayanıqlığı üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan etibarlı enerji tərəfdaşına çevrilib və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində mühüm rol oynayır. Onun töhfəsi yalnız bir təchizatçıdan asılılığı azaltmağa kömək edir, həmçinin daha sabit və şaxələndirilmiş enerji təchizatını təmin edir", - deyə İqnasio Kassis müsahibəsində bildirib.

Eyni zamanda, Cənubi Qafqazda sülh və sabitlik perspektivlərinin gücləməsi, Azərbaycanın Avropa ilə Asiya arasında nəqliyyat və enerji bağlantılarında rolunun artması, iqtisadiyyatın şaxələndirilməsi və yaşıl transformasiya istiqamətində həyata keçirilən tədbirlər Azərbaycan-İsveçrə əməkdaşlığının gələcək inkişafı üçün yeni imkanlar açır. Azərbaycanın coğrafi mövqeyi ona Şərqlə Qərb arasında bağlantılar yaranmasında böyük üstünlüklər qazandırır. İqnasio Kassis vurğulayıb ki, İsveçrə Orta Dəhlizin inkişafında maraqlıdır, çünki etibarlı və şaxələndirilmiş ticarət yolları açıq və dayanıqlı qlobal iqtisadiyyat üçün çox əhəmiyyət kəsb edir. Logistika, infrastruktur və rəqəmsallaşdırma kimi sahələrdə əməkdaşlıq üçün potensial var. "Cenevrədə yerləşən "Mediterranean Shipping Company" (MSC) tərəfindən ötən il Bakıda nümayəndəliyin açılması Azərbaycanın regional nəqliyyat mərkəzi kimi roluna artan marağın bariz nümunəsidir", - deyə İsveçrə rəsmisi bildirib.

***Mübariz ABDULLAYEV***

# Bakı-Sürix münasibətlərində praqmatik əməkdaşlıq modeli

## İki ölkə arasında fərqli sahələr üzrə tərəfdaşlığın inkişafı imkanları genişdir



Azərbaycanın xarici siyasət kursunun əsas xüsusiyyətləri praqmatizmə, qarşılıqlı maraqlara və bərabərhüquqlu tərəfdaşlıq prinsipinə söykənməsidir. Rəsmi Bakı hər zaman ikitərəfli münasibətlərdə qarşılıqlı fayda, regional sabitlik, təhlükəsizlik və uzunmüddətli əməkdaşlıq meyarlarından çıxış edir. Məhz bu prinsip Azərbaycanın müxtəlif siyasi və iqtisadi sistemlərə malik dövlətlərlə etibarlı münasibətlər qurmasına imkan yaradıb.




### "Keçirilən görüşlərin ikitərəfli əlaqələrimizin gələcək inkişaf dinamikasına mühüm töhfə verəcəyinə inanırıq"

Azərbaycan-İsveçrə əlaqələri də bu praqmatik yanaşmanın uğurlu nümunələrindən biridir. Fərqli coğrafiyalarda yerləşmələrinə baxmayaraq, hər iki ölkə siyasi dialoqun, iqtisadi əməkdaşlığın və beynəlxalq hüquqa əsaslanan münasibətlərin inkişafına xüsusi önəm verir. İllər ərzində formalaşan əməkdaşlıq mühiti ticarət, investisiya, maliyyə, humanitar sahələr və beynəlxalq platformalarda əlaqələrin genişlənməsinə zəmin yaradıb. Bu münasibətlər göstərir ki, qarşılıqlı hörmət və ortaq maraqlar üzərində qurulan tərəfdaşlıq uzunmüddətli və dayanıqlı nəticələr verir. Azərbaycanın balanslaşdırılmış və praqmatik xarici siyasəti İsveçrə ilə əlaqələrin də davamlı inkişafını təmin edən əsas amillərdən biri kimi çıxış edir və əməkdaşlığın gələcəkdə yeni istiqamətlər üzrə daha da dərinləşməsi üçün möhkəm əsas yaradır. Avqustun 4-də İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassisin ölkəmizə səfəri çərçivəsində keçirilən birgə mətbuat konfransında çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, İqnasio Kassis ilə görüşdə ikitərəfli münasibətlər, İsveçrənin sədri olduğu təşkilatlar çərçivəsindəki fəaliyyət, mövcud vəziyyət və perspektivlər, eyni zamanda, Azərbaycan-İsveçrə ikitərəfli gündəliyi, regionumuzdakı postmünaqişə vəziyyəti, Azərbaycan-Ermənistan normallaşma prosesi və bir sıra digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib. Ceyhun Bayramov bildirib ki, aparılan faydalı fikir mübadiləsinin və keçirilən görüşlərin ikitərəfli əlaqələrimizin gələcək inkişaf dinamikasına, eləcə də regionda sabitlik və təhlükəsizliyin möhkəmlənməsinə mühüm töhfə verəcəyinə inanırıq.

### İnvestisiya əməkdaşlığında kifayət qədər balanslı yanaşma...

Azərbaycanda həyata uğurlu siyasət kursu, makroiqtisadi sabitliyin qorunması və sahibkarlığa dövlət dəstəyi ölkədə müsbət və münbit investisiya mühitinin formalaşmasına şərait yaradıb. Bu gün həm yerli, həm də xarici investorlar üçün etibarlı biznes mühiti mövcuddur. Xarici tərəfdaşlarımız bu imkanlardan uğurla istifadə edərək müxtəlif sahələrdə investisiya layihələri həyata keçirir və bununla da qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq əlaqələri genişlənir. Xüsusilə sənaye, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı və yaşıl enerji istiqamətlərində reallaşdırılan birgə layihələr Azərbaycanın regional iqtisadi mərkəz kimi mövqeyini daha da gücləndirir. İnvestisiya əməkdaşlığının genişlənməsi ölkəyə yeni texnologiyaların, innovasiyaların və müasir idarəetmə təcrübəsinin cəlb olunmasına da mühüm töhfə verir. İsveçrə ilə də investisiya sahəsində əməkdaşlığın da mühüm potensialı mövcuddur. Nazir C.Bayramov bildirib ki, son 30 ilin nəticələrinə nəzər saldıqda İsveçrədən Azərbaycana 1,6 milyard ABŞ dolları, Azərbaycandan isə İsveçrə iqtisadiyyatına 2,3 milyard ABŞ dolları həcmində investisiya yatırıldığı görünür. Bu göstəricilər investisiya əməkdaşlığında kifayət qədər balanslı yanaşmanın formalaşdığını nümayiş etdirir. Xarici işlər naziri deyib ki, 2025-ci il qarşılıqlı ticarət dövriyyəsi baxımından kifayət qədər uğurlu olub. Həmin il iki ölkə arasında ümumi ticarət dövriyyəsi 1,8 milyard ABŞ dollarına yaxın təşkil edib. Nazir onu da qeyd edib ki, Azərbaycanda 110 İsveçrə şirkəti qeydiyyatdan keçib. Onlardan 87-si aktivdir. Bu şirkətlər sənaye, tikinti, kənd təsərrüfatı, nəqliyyat, ticarət və digər sahələrdə fəaliyyət göstərirlər.

"Hazırda iki ölkə arasında bir sıra yeni sənədlər üzərində iş aparılır. Hesab edirik ki, yaxın zamanda əlavə razılaşmaların imzalanmasının şahidi olacağıq", - deyə Ceyhun Bayramov əlavə edib.

Bundan başqa, Azərbaycan-İsveçrə Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının 10-cu iclasının keçirilməsi də planlaşdırılır. Nazir vurğulayıb ki, iclasın bu ilin payızında baş tutması gözlənilir. Komissiyanın iclası çərçivəsində və ya ona yaxın tarixdə biznes dairələrinin və özəl sektor nümayəndələrinin iştirakı ilə Birgə Biznes Forumunun keçirilməsi də faydalı ola bilər. C.Bayramov qeyd edib ki, ATƏT məkanında əməkdaşlığın gücləndirilməsi ölkələrin iqtisadi inkişafı və insanların rifahının yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

### ATƏT-dən gözləntimiz...

Sirr deyil ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində postmünaqişə dövründə qarşıya çıxan ən ciddi problemlərdən biri genişmiqyaslı mina çirklənməsidir. Mövcud məlumatlara əsasən, ərazilərin təxminən 13 faizini əhatə edən bu təhlükə 1 milyondan artıq mina və partlamamış hərbi sursatın mövcudluğu ilə xarakterizə olunur. Bu amil həm insan həyatı, həm də regionun sosial-iqtisadi inkişafı üçün ciddi risklər yaradır. Belə ki, ümumilikdə 2020-ci ildən bəri 433 nəfər mina qurbanına çevrilib. Bu statistika göstərir ki, mina problemi hələ də ölkə üçün əsas təhlükəsizlik çağırışlarından biri olaraq qalır. Hazırda Azərbaycan dövləti bu mürəkkəb vəzifənin öhdəsindən əsasən öz daxili maliyyə resursları hesabına gəlir ki, bu da ölkənin məsuliyyətli və ardıcıl siyasətinin göstəricisidir. Bununla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində diqqət və resursların müxtəlif qlobal böhranlar arasında bölüşdürülməsi mina probleminin beynəlxalq gündəmdə lazımi səviyyədə yer almamasına səbəb olur.

Mövcud vəziyyət onu göstərir ki, mina probleminin həlli yalnız milli səviyyədə deyil, beynəlxalq humanitar gündəlik çərçivəsində qiymətləndirilməlidir. Bu baxımdan bir sıra vacib istiqamətlər ön plana çıxır. Bunlara beynəlxalq donorların daha fəal cəlb edilməsi, minatəmizləmə texnologiyalarına investisiyaların artırılması, beynəlxalq təşkilatlarla koordinasiyanın gücləndirilməsi və mina probleminin qlobal platformalarda daha aktiv şəkildə qaldırılması daxildir. Ceyhun Bayramov mətbuat konfransında bildirib ki, 2020-ci il müharibəsindən bəri Ermənistanın basdırdığı minaların partlaması nəticəsində 433 nəfər zərər çəkib. Minatəmizləmə işlərinin əsas hissəsini Azərbaycan öz resursları hesabına həyata keçirir. Bu sahədə ölkəmizə dəstək göstərən dövlətlər və beynəlxalq təşkilatlar olsa da, mövcud yardımın həcmi ehtiyacları tam qarşılamır. "ATƏT-dən gözləntimiz ondan ibarətdir ki, təşkilat minatəmizləmə sahəsində daha fəal rol oynasın, humanitar layihələrin həyata keçirilməsinə və bu istiqamətdə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə daha güclü dəstək versin", - deyə nazir bildirib.

### Regionun inkişafı üçün yeni imkanlar

Azərbaycanın təşəbbüsü ilə irəli sürülən Zəngəzur dəhlizi (TRİPP) regionun nəqliyyat və logistika sistemində yeni mərhələnin əsasını qoyur. Bu marşrutun tam istismara verilməsi Şərq-Qərb istiqamətində yükdaşımaların həcmini artıracaq, tranzit müddətini və nəqliyyat xərclərini azaldacaq. Dəhliz Orta Dəhlizin səmərəliliyini yüksəldərək Asiya ilə Avropa arasında ticarət əlaqələrinin daha da genişlənməsinə töhfə verəcək. Eyni zamanda, yeni iqtisadi reallıqlar fonunda regional əməkdaşlığın möhkəmlənməsi, investisiya axınının artması və logistika imkanlarının genişlənməsi üçün əlverişli zəmin yaradacaq. Zəngəzur dəhlizi (TRİPP) təkcə Azərbaycan üçün deyil, bütövlükdə Avrasiyanın iqtisadi inteqrasiyasını sürətləndirəcək strateji layihələrdən biri kimi qiymətləndirilir. Yeri gəlmişkən, yolun hazırlanması prosesi uğurla davam edir. Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan dövləti üzərinə düşən öhdəlikləri yüksək sürətlə yerinə yetirir. İlk növbədə, dəmir yolu xətlərinin çəkilməsi və avtomobil yolu layihələrinin icra səviyyəsi artıq kifayət qədər yüksəkdir. 2027-ci ilin əvvəlinədək hər iki layihənin Ermənistan sərhədinədək çatdırılması planlaşdırılır. O əlavə edib ki, Naxçıvan Muxtar Respublikası ərazisində təxminən 180 kilometr uzunluğunda dəmir yolu xətti mövcuddur. Lakin həmin xətt təxminən 30 il ərzində istismar olunmadığından onun bərpası üçün əlavə investisiyalara və genişmiqyaslı yenidənqurma işlərinə ehtiyac var. Bu istiqamətdə işlərə artıq başlanılıb. "Bundan əlavə, mühüm layihələrdən biri də Qars-İğdır-Dilucu dəmir yolu layihəsidir. Qardaş Türkiyə ərazisində bu layihənin tikintisi artıq başlanıb və icra prosesi davam edir.

Bütün bu layihələrin həyata keçirilməsi və vaxtında başa çatdırılması regionun inkişafı üçün yeni imkanlar yaradacaq. Bu, təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin bərpasına xidmət etməyəcək, həm də Şərq-Qərb və Orta Dəhliz marşrutlarına yeni ölçü qazandıracaq", - deyə C.Bayramov əlavə edib.

### "Azərbaycanla əlaqələrimizi genişləndirmək niyyətindəyik"

Bakının Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlar və irəli sürdüyü sülh gündəliyi beynəlxalq ictimaiyyət tərəfindən getdikcə daha çox dəstək qazanır. Postmünaqişə dövründə Azərbaycan regionda qarşıdurma deyil, əməkdaşlıq və iqtisadi inteqrasiya modelini ön plana çıxararaq davamlı sabitliyin təmin olunmasına yönəlmiş siyasət həyata keçirir. Xüsusilə Avropa ölkələri və Avropa institutları son dövrlərdə Cənubi Qafqazda sülhün bərqərar olmasının vacibliyini vurğulayır, Azərbaycanla siyasi, iqtisadi və enerji sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bəyan edirlər. Bu yanaşma Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuzunun daha da möhkəmləndiyini göstərir. Rəsmi Bakının praqmatik xarici siyasəti, təşəbbüskar diplomatiyası və regional sabitliyə verdiyi töhfə ölkənin beynəlxalq münasibətlər sistemində orta güc statusunu gücləndirən əsas amillərdən biri kimi çıxış edir. Bununla yanaşı, Azərbaycanın irəli sürdüyü təşəbbüslər regionun gələcək inkişafı üçün yeni əməkdaşlıq imkanları yaradır. İsveçrənin Federal Şurasının üzvü və Federal Xarici İşlər Departamentinin rəhbəri, ATƏT-in fəaliyyətdə olan sədri İqnasio Kassis Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə birgə keçirilən mətbuat konfransında bildirib ki, Azərbaycanın geosiyasi mövqeyi ölkəmizə mühüm hab rolunu oynamaq imkanı yaradıb. O qeyd edib ki, görüş zamanı bu imkanlar ətrafında da fikir mübadiləsi aparılıb. "Eyni zamanda, Azərbaycan-Ermənistan normallaşma prosesini müzakirə etdik. Sülh sazişinin paraflanmasından bir il ötür. Ölkənizin bu prosesə verdiyi töhfəni yüksək qiymətləndirir və bunu məmnunluqla qarşılayırıq", - deyə İqnasio Kassis əlavə edib.

İqnasio Kassis həmçinin Azərbaycanı ATƏT-in Nazirlər Şurasının iclasında da görmək istədiklərini önə çəkib. "Eyni zamanda, Azərbaycanla əlaqələrimizi mümkün olan bütün istiqamətlər üzrə daha da genişləndirmək niyyətindəyik", - deyə o əlavə edib.

**P.İSMAYILOV**

# Bakıda "Türk Dövlətləri Təşkilatının Aparıcı Milli Analitik Mərkəzlərinin II Beynəlxalq Konfransı" keçiriləcək

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) və Türk Dövlətləri Təşkilatının (TDT) birgə təşkilatçılığı ilə sentyabrın 16-da "Gülüstan" sarayında "Türk Dövlətləri Təşkilatının Aparıcı Milli Analitik Mərkəzlərinin II Beynəlxalq Konfransı" keçiriləcək.

İİTKM-dən AZƏRTAC-a bildirilib ki, "Türk Dövlətləri Təşkilatında iqtisadi əməkdaşlığın davamlı məsləhətləşmələr və birgə tədqiqatlar vasitəsilə gücləndirilməsi" mövzusuna həsr olunmuş konfrans qlobal iqtisadi sistemdə baş verən transformasiyalar fonunda Türk dövlətləri arasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsi, ortaq tədqiqat platformalarının yaradılması və institusional əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyır.

Tədbir yüksəksəviyyəli beynəlxalq platforma kimi dövlət qurumlarının nümayəndələrini, aparıcı analitik mərkəzlərin rəhbərlərini, akademik dairələri, beynəlxalq təşkilatların təmsilçilərini, maliyyə institutlarını və biznes ictimaiyyətini bir araya gətirəcək. Konfransın məqsədi yalnız elmi və analitik müzakirələrin təşkili deyil, həm də Türk dünyasında uzunmüddətli tədqiqat şəbəkələrinin formalaşdırılması, ekspertlər arasında davamlı dialoqun inkişaf etdirilməsi və siyasət qərarlarının elmi əsaslarla dəstəklənməsinə töhfə verməkdir.




Konfrans proqramına uyğun olaraq üç əsas panel təşkil olunacaq. Birinci paneldə Orta Dəhlizin regional inteqrasiya və infrastruktur əsaslı inkişafın katalizatoru kimi rolu, ikinci paneldə Türk Dövlətləri Təşkilatı ölkələri arasında ticarət-iqtisadi əlaqələrin mövcud vəziyyəti və inkişaf potensialı, üçüncü paneldə isə dayanıqlı inkişaf naminə innovasiya, iqtisadi transformasiya, rəqəmsallaşma və süni intellekt əsaslı inkişaf modelləri müzakirə ediləcək. Panel sessiyalarında Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin aparıcı beyin mərkəzlərinin rəhbərləri, tanınmış alimlər və beynəlxalq ekspertlər çıxış edəcəklər.

"Türk Dövlətləri Təşkilatının Aparıcı Milli Analitik Mərkəzlərinin II Beynəlxalq Konfransı"nın nəticələrinin Türk dünyasında iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə, ortaq iqtisadi məkanın formalaşmasına, tədqiqat və innovasiya əməkdaşlığının genişlənməsinə, eləcə də "Türk Dünyası Vizyonu-2040" sənədində müəyyən edilmiş strateji hədəflərin həyata keçirilməsinə töhfə verəcəyi gözlənilir.

Konfrans haqqında ətraflı məlumat və qeydiyyat üçün: https://turkicthinktanks.ereforms.org/

## Azərbaycanda azad mətbuat dönəmi

# Senzurasız 28 il...

Azərbaycanda 6 avqust əlamətdar bir gündür. Tarixin bu günündə - 1998-ci il avqustun 6-da Prezident Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzalayıb və bununla da milli mətbuatımızın tarixində keyfiyyətcə yeni bir dönəmin əsası qoyulub.

Müstəqilliyinin birinci onilliyində belə bir mühüm sənədin imzalanması Azərbaycanın və onun dövlət başçısının demokratiyaya sözdə deyil, əməldə sadiqliyinin təsdiqi idi. Həmin vaxtdan bəri respublikamızda söz azadlığı yüksək səviyyədə təmin edilir və üzərində hər hansı bir nəzarət mexanizmi olmayan azad mətbuat uğurla inkişaf edir. Bu gün Azərbaycan jurnalistlərinin peşəkarlığı yüksək səviyyədədir. Ölkəmizdə ənənəvi çap mediası dövlət dəstəyi ilə qorunur, eyni zamanda onlayn medianın inkişafı üçün geniş imkanlar yaradılır.

## Milli mətbuat ənənələrinə xəyanət - AXC-"Müsavat" iqtidarının saxta demokratiyası

Hər hansı bir ölkədə mətbuat azadlığı ilə siyasi rejimin mahiyyəti arasında bağlılıq olduğunu heç kəs inkar edə bilməz. İdeoloji cəmiyyətlərdə mətbuat orqanları, jurnalistlər öz fəaliyyətlərini bir qayda olaraq siyasi strukturlardan gələn tezislər əsasında qururlar. Azərbaycanın da 70 il ərzində tərkibində olduğu keçmiş ittifaq dövlətinin nümunəsi hələ yaddaşlardan silinməyib. Həmin dönəmdə mərkəzi hakimiyyətin müəyyənləşdirdiyi siyasi kursa uyğun gəlməyən ideyalar irəli sürməsinə və yaxud fikirlər səsləndirilməsinə qətiyyən imkan verilmirdi. Bəlli siyasi kursun təbliği qəzet və jurnalların, televiziya və radionun bir nömrəli vəzifəsi idi. Təbii ki, belə vəziyyətdə azad mətbuatdan bəhs etmək də absurddur.

Nə qədər qəribə görünsə də Azərbaycanın müstəqilliyinin ilk illərində respublikamızda keçmiş sovet rejiminin "mətbuat üzərində basqı" ənənəsi qorunub saxlanıldı. Xüsusilə də 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-"Müsavat" iqtidarının bəhs olunan ənənələrdən, necə deyərlər, ikiəlli yapışması son dərəcə təəccüblü idi. Məsələ burasındadır ki, meydan hərəkatı dönəmində həm AXC-nin, həm də "Müsavat"ın təmsilçiləri mitinqlərdə insanlara demokratiya dərsi verməyə çalışırdılar, o dövrdəki hakimiyyəti mətbuat üzərində senzuraya görə ən kobud ifadələrlə qınayırdılar.

Fəqət həmin qüvvələr hakimiyyətə gəldikdən sonra demokratik dəyərlərdən çox uzaq olduqlarını ortaya qoydular. Aydın şəkildə göründü ki, onlar özlərini demokrat libasına bürünmüş kimi göstərsələr də, əslində, düşüncə, dünyagörüşü etibarı ilə bütünlüklə keçmiş sovet ideologiyasının təsirlərindən qurtula bilməyiblər. Heç bir idarəçilik təcrübəsi olmayan, hakimiyyətə korporativ maraqlarının təmin olunması naminə gələn bu adamlar düşünürdülər ki, iqtidar mənsubu hakimi-mütləqdir, onların sözünün qarşısında başqa söz demək, fərqli fikir bildirmək olmaz. Bu əqidə ilə də AXC-"Müsavat" iqtidarının təmsilçiləri milli mətbuata, jurnalistlərə total hücuma başladılar. Həmin dövr nazirlərindən birinin qəfildən studiyaya girməsi və efiri kobudcasına pozması hələ də kədərli ironiya ilə xatırlanır. Jurnalistlərin döyülməsi, təhqirlərə məruz qalmaları, şantaj edilmələri adi hala çevrilmişdi. AXC-"Müsavat" hakimiyyətinin mətbuata, jurnalistikaya münasibəti totalitar rejimlərdəki yanaşmadan fərqlənmirdi. Həmin dövrdə imzalanan mətbuat üzərində hərbi senzuranın yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam dövlət sirrinin qorunmasından çox, ovaxtkı hakimiyyətin əməllərini gizlətmək məqsədi daşıyırdı. Müstəqilliyin ilk illərində ölkədə mövcud olan ümumi qanunsuzluq və özbaşınalıq mühiti eyni zamanda, media sahəsində neqativ halların artmasına səbəb olmuşdu, geniş yayılan reketçilik isə jurnalist peşəsinin nüfuzuna mənfi təsir göstərirdi. 1992-ci ildə yaradılan hərbi senzura yazılı mətbuatın vəziyyətini daha da ağırlaşdırdı. Milli maraqları maddiyyata satanlar qorxurdular ki, onların əleyhinə hər hansı bir informasiyanın, əslində isə, həqiqətin xalqa çatdırılması bu qüvvələrin siyasi iflasına gətirib çıxaracaq.



## Heydər Əliyevin qətiyyətli siyasi iradəsi - sözə azadlıq verilməsi

Azərbaycan xalqı AXC-"Müsavat" iqtidarının yarıtmaz fəaliyyətinə cəmi 1 il dözdü. 1993-cü ilin yayında ölkəmizi vətəndaş müharibəsinin astanasına gətirib çıxaran bu rejim tarixin arxivinə qovuşdu və böyük siyasətçi Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdı. Böyük idarəçilik təcrübəsinə malik olan Heydər Əliyev aldığı müdrik qərarlarla qısa müddətdə Azərbaycanda həyatı normal məcraya yönəltməyə müvəffəq oldu.

Həmçinin Onun sayəsində jurnalistlər ordusu da keçmiş diletant rəhbərliyin mətbuat ənənələrimizə münasibətdə məqsədli şəkildə yol verdiyi xəyanətdən qurtuldu. Heydər Əliyev mətbuatın cəmiyyətdəki rolunu hər zaman yüksək qiymətləndirir, onu, sadəcə, informasiya vasitəsi deyil, ictimai düşüncənin formalaşmasında mühüm bir platforma kimi dəyərləndirirdi. Xatırladaq ki, Heydər Əliyev hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə respublikamızda Azərbaycan dilli mətbuatın inkişafını həmişə diqqət mərkəzində saxlamışdı. Məhz Onun qayğısı sayəsində 1969-1982-ci illərdə Azərbaycanda yüksək peşəkarlığa malik jurnalistlər pleyadası formalaşmışdı. Heydər Əliyev həmin dövrdə vaxtaşırı respublikamızda nəşr olunan qəzet və jurnalların kollektivləri ilə görüşür, jurnalistlərə öz tövsiyələrini verir, onları Azərbaycan dilinin incəliklərini qorumağa, zəngin mədəniyyətimizi təbliğ etməyə çağırırdı. Bəhs olunan illərdə respublika rəhbərliyinin KİV təmsilçilərinə qayğısı da çoxşaxəli idi.

Heydər Əliyev mətbuat üzərində siyasi nəzarətin mövcudluğunun nə demək olduğunu hamıdan yaxşı bilirdi. Elə Onun Özü də AXC-"Müsavat" iqtidarı dönəmində mətbuat səhifələrində əsassız hücumlara məruz qalmışdı. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycanda yeniliklər dalğası həmçinin milli mətbuatımızı əhatə etdi. Onun səyləri sayəsində mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər ölkədə fikir plüralizminin genişləndirilməsinə yol açdı. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi milli mətbuat ənənəsinin davam etdirilməsinə təkan verdi. Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Konstitusiyada da mətbuata verilən qiymət öz əksini tapdı. "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir", - deyə Əsas Qanunumuzda vurğulanıb. Heydər Əliyevin 1998-ci ilin 6 avqustunda imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda mühüm addım oldu. Məhz bu fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzuranın yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşdü. Eyni zamanda, 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı.

Bir sözlə, ölkəmizdə azad sözün inkişafı tarixi məhz 1998-ci ilin 6 avqustundan başlayır. Ümummilli Liderimiz Heydər Əliyev yuxarıda bəhs edilən fərmanla Azərbaycanda demokratik prinsiplərin, azad sözün qorunması istiqamətində bir tarix yaratdı. Bundan başqa, mətbuatda dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması prosesi asanlaşdırıldı. 2000-ci ilin mart ayında Heydər Əliyevin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu, 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Digər çoxsaylı faktları da sadalamaq mümkündür. Bütün bunlar, çox doğru olaraq Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün əlamətdar tarixi hadisələr kimi qiymətləndirilir. O da qeyd edilməlidir ki, mətbuat təmsilçiləri Heydər Əliyevin hərtərəfli diqqət və qayğına cavab olaraq Onu "Jurnalistlərin dostu" seçiblər.

## Milli mətbuatımızın qarşısında açılan yeni dövr

Ölkəmizdə Heydər Əliyevin əsasını qoyduğu media siyasəti sonrakı mərhələdə də eyni ardıcıllıqla davam etdirilir. Prezident İlham Əliyevin aldığı qərarlar milli mətbuatımızın inkişafına həm hüquqi, həm də texniki və institusional baxımdan güclü şəkildə təkan verib. O cümlədən 2005-ci ildə milli mətbuatın yaranmasının 130 illiyi ilə əlaqədar 140-dan artıq mətbuat işçisi Prezidentin sərəncamı ilə fəxri adlara və digər mükafatlara layiq görülüb. Həmin dövrdə dövlətimizin başçısının təşəbbüsü ilə "Əməkdar jurnalist" fəxri adı da bərpa edilib. Azərbaycan Prezidentinin 2006-cı il 8 fevral tarixli sərəncamı isə mətbuat üçün xüsusi əhəmiyyət daşıyırdı. Bu sənədə əsasən, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan bütün borcları tamamilə silindi. 2005-ci ildə qəbul olunmuş "İnformasiya əldə etmək haqqında" Qanun vətəndaşların informasiyaya çıxış hüququnu genişləndirdi. 2010-cu ildə qəbul edilən "Elektron media haqqında" Qanun isə müasir texnologiyaların tətbiqi ilə medianın daha çevik və effektiv fəaliyyət göstərməsinə imkan yaratdı. 2018-ci il 16 iyul tarixli sərəncamla ölkədə nəşr olunan qəzetlərə dövlət tərəfindən böyük maliyyə dəstəyi göstərildi.

Ümumiyyətlə, respublikamızda azad mətbuata dövlət qayğısının əhatə dairəsi çox genişdir. O cümlədən qabaqcıl dünya təcrübəsi və müasir çağırışlar nəzərə alınmaqla hazırlanan "Media haqqında" Qanunun qəbul edilməsi ilə milli mətbuatımızın qarşısında yeni dövr açılıb. Qısa müddətdə Media Reyestrinin yaradılması da böyük uğurdur.

## Azad Şuşada dünya mediası ilə açıq dialoq

Bu gün Azərbaycan mətbuatı özünün yeni inkişaf dövrünü yaşayır. Əlamətdar haldır ki, milli mətbuatımız çağırışlara həmişə yüksək səviyyədə - peşəkarlıqla və operativliklə cavab verir. Vətən müharibəsi günləri mətbuatımız üçün də bir sınaq dövrü oldu. Bir çox jurnalistlər həmin günlərdə qələmi süngü ilə əvəzlədilər. Arxa cəbhədə fəaliyyət göstərən jurnalistlər isə yüksək həmrəylik və vətənpərvərlik nümunəsi ortaya qoydular.

Postmüharibə dövründə azad Şuşada qlobal media forumlarının keçirilməsi Azərbaycan mediasının tarixində əlamətdar hadisədir. Bu forumlarda dünya mediası ilə açıq dialoq aparılır ki, bu da müstəqil Azərbaycanın demokratiyaya sadiqliyini əyani şəkildə təsdiqləyir. I Şuşa Qlobal Media Forumu 2023-cü il iyulun 21-də "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı təşkil olunub. İlk forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edib. Forum çərçivəsində "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda aktual müzakirələr aparılıb.

2024-cü il iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən II Şuşa Qlobal Media Forumunda 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumu iştirak edib. Forum çərçivəsində müxtəlif mövzularda 4 panel sessiya təşkil olunub.

Sayca üçüncü forum 2025-ci il 19-21 iyul tarixlərində Xankəndi və Şuşa şəhərlərində keçirilib. "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzularını əhatə edən III Forumda 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələri iştirak ediblər.

İyulun 13-14-də baş tutan IV Şuşa Qlobal Media Forumu "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunub. Foruma dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspert və rəsmi şəxslər qatılıb. Tədbirdə 30-a yaxın beynəlxalq informasiya agentliyi, 60-dan çox aparıcı media qurumu, eləcə də beynəlxalq təşkilatların nümayəndələri təmsil olunublar. Panel müzakirələrdə medianın sülh quruculuğundakı rolu, sərhədlərarası media dialoqu, ictimai etimadın bərpası, dezinformasiyaya qarşı beynəlxalq əməkdaşlıq, rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması, süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika kimi mühüm mövzuların müzakirələri aparılıb.

*Mübariz FEYİZLİ*

# Nyu-York Universitetinin professoruna açıq məktub

Amerika Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələri tərəfindən istifadə edilən ixtisaslaşdırılmış materiallar istehsal edən yeganə türk mühəndis, "Integrated Polymer Industries" şirkətinin qurucusu, B-2 bombardmançı təyyarələri üçün görünməzlik təmin edən örtük materiallarının müəllifi, tədqiqatçı yazıçı Ergün Kırlıkovalı Nyu-York Universitetinin professoru, yazıçı Nassim Nikolas Taleb Ruben Vardanyanın "xeyriyyəçiliklə" bağlı sistemli illüziyalarına dair məktub ünvanlayıb.

Məktubda deyilir:

"Hörmətli Nassim Nikolas Taleb,

Sizə X sosial şəbəkəsində Ruben Vardanyanın həbsdə qaldığı müddətdə Bakıda mühazirə oxumaqdan imtina etdiyinizi bildirdiyiniz son ictimai bəyanatınızla əlaqədar müraciət edirəm.

Karyerasını gizli maliyyə riskləri, narrativ yanlışlıqlar və sistemli "korluq" barədə dünyanı xəbərdar etməyə həsr etmiş bir müəllifin diqqətlə formalaşdırılmış bir illüziyanın təsiri altına düşməsini müşahidə etmək dərin ironiyadır.

Vardanyanın maliyyə şəbəkəsinin fəaliyyət tarixçəsinin və qəfil siyasi manevrlərinin hərtərəfli təhlili göstərir ki, onun geniş tanınan xeyriyyəçi imici məhz sizin klassik şəkildə "narrativ sipər" adlandıracağınız bir vasitədir və qanunsuz maliyyə fəaliyyətini, eləcə də geosiyasi sabitliyin pozulmasını gizlətməyə xidmət edir.

Gəlin faktlara nəzər salaq. Vardanyanın "Troika Dialog" bankı "Troika Laundromat" kimi tanınan çirkli pulların yuyulması sxeminin mərkəzində fəaliyyət göstərirdi. Qlobal maliyyə qurumlarının və hüquq-mühafizə orqanlarının araşdırmalarına əsasən, bu şəbəkə əsas və ikinci dərəcəli "təbəqələşdirmə" üsullarından istifadə etməklə mürəkkəb ofşor sxemləri, vasitəçi bankları və saxta şirkətləri idarə edib, Rusiyadan milyardlarla dolların qanunsuz şəkildə çıxarılmasını təmin edib və benefisiar mülkiyyətçilərin kimliyini sistemli şəkildə gizlədib.

Bundan əlavə, bank auditləri göstərir ki, bu şəbəkə adi və heç nədən xəbəri olmayan vətəndaşlardan hüquqi şəxslərin hesablarını rəsmiləşdirmək üçün istifadə edib, onların şəxsiyyət məlumatları vasitəsilə vəsaitləri mürəkkəb beynəlxalq maliyyə sxemləri ilə köçürüb.

Sistemli maliyyə pozuntularından əlavə, Vardanyanın fəaliyyəti qanunvericilik və təhlükəsizlik baxımından da ciddi nəticələr doğurur.

Rusiyanın Ukraynaya genişmiqyaslı hücumundan sonra o, Rusiyanın müharibə məqsədlərinə xidmət edən əsas sənaye sahələrinə maddi, texniki və logistik dəstək göstərməkdə ittiham olunaraq, bir sıra beynəlxalq monitorinq mexanizmlərinə daxil edilib.

Onun adının Ukraynanın "Peacemaker" (Sülhməramlı) bazasına rəsmi daxil edilməsi onu, sadəcə, müşahidəçi deyil, dövlət təcavüzünü maliyyə baxımından dəstəkləyən şəxs kimi xarakterizə edir.

Beynəlxalq səviyyədə ciddi sanksiyalarla üzləşmiş bir şəxsin qeyd-şərtsiz azadlığa buraxılmasını tələb etməklə siz regional zorakılığı maliyyələşdirən mexanizmləri faktiki olaraq müdafiə etmiş olursunuz.

Onun həbsi ilə bağlı yanaşmanız həm də iştirakının yaratdığı ciddi siyasi qeyri-sabitliyi nəzərə almır. Onun 2022-ci ilin sonlarında Qarabağa qəfil gəlişi yerli sabitliyi birbaşa pozdu, nəticədə terrorçuluğun maliyyələşdirilməsi və qanunsuz silahlı birləşmələrin yaradılması ittihamları ilə 2026-cı ilin fevralında Bakı Hərbi Məhkəməsinin çıxardığı 20 il müddətinə azadlıqdan məhrumetmə hökmü ilə nəticələndi.

Vardanyanın keçdiyi yolu, sadəcə, humanitar missiya kimi qiymətləndirmək yazılarınızda xəbərdarlıq etdiyiniz "kor nöqtələr"in qurbanına çevrilmək deməkdir.

Bundan əlavə, ictimai mövqeyiniz bu münaqişənin qurbanlarına qarşı tarixi empatiyanın ciddi çatışmazlığını nümayiş etdirir. Otuz ildən artıq müddətdə Azərbaycan xalqı öz torpaqlarında ağır faciələr yaşayıb. Bu faciələrə 1992-2020-ci illərdə baş vermiş amansız hərbi işğal, silah gücünə doğma yurdlarından didərgin salınmış təxminən bir milyon azərbaycanlı mülki şəxs və 1992-ci ildə baş vermiş Xocalı qətliamının sənədləşdirilmiş dəhşətləri daxildir.

Bu ərazilərin azad olunması və 2020-ci ilin noyabrında əldə edilmiş atəşkəs nəhayət davamlı sülh sazişinə aparan yolu açsa da, uzunmüddətli sülh yalnız beynəlxalq məsuliyyət və hüququn aliliyinin təmin olunması ilə mümkündür.

Kölgə iqtisadiyyatı, qanunsuz qlobal maliyyə əməliyyatları və müharibə logistikası ilə sıx əlaqələri olan bir oliqarxı müdafiə etmək üçün qlobal platformanızdan istifadə etməklə siz etik mövqe nümayiş etdirmirsiniz.

Əksinə, siz süni şəkildə hazırlanmış bir piar kampaniyasının intellektual dürüstlüyünüzə kölgə salmasına icazə verirsiniz.

Əsl humanizm bizdən əziyyətlərdən qazanc götürən nüfuzlu maliyyəçilərin deyil, məcburi köçkünlərin və təcavüz qurbanlarının tərəfində olmağı tələb edir.

Sizi real və ya təxəyyül məhsulu olan şəxsi rəğbətinizi bir kənara qoymağa, Vardanyanın fəaliyyət şəbəkəsini özünüzün tətbiq etdiyiniz ciddi skeptisizm meyarları ilə qiymətləndirməyə və müdafiənizin doğurduğu ciddi etik nəticələri yenidən nəzərdən keçirməyə çağırıram".

# İlk və son "sınaq"dan 81 il ötür

## Yaponiya bəşəriyyət tarixində atom bombası atılan tək ölkədir

XX əsrin ən təhlükəli icadı məhz o idi - nüvə silahı... Bu silah icad edildiyi, daha doğrusu, ilk istifadədən sonra nə qədər böyük dağıdıcı və məhvedici gücə malik olduğunu məlum etdi. Bəşəriyyətə, insanlığa qarşı ölüm kabusu kimi xarakterizə olunan nüvə silahı ayrı-ayrılıqda dünyanın aparıcı dövlətləri sayılan ölkələrin də çəkinən yeridir. Xüsusilə son illərdə, qlobal təhlükəsizliyin təhdid qarşısında qaldığı zamanda nüvə müharibəsi ritorikası daha da intensivləşib. Bu isə bütövlükdə Yer kürəsi üçün, bəşəriyyət üçün qorxulu bir siqnaldır.

Bu gün, avqustun 6-sı bəşəriyyət üçün ölüm kabusu deyilən bu silahın hələlik ilk "sınaqdan" keçdiyi gündür... Bu gün Yaponiya tarixinin qanlı avqust günüdür.

### Nüvə silahı nədir?

"Nüvə silahı" - atom nüvəsinin parçalanma reaksiyası nəticəsində nüvədaxili enerjinin (atom enerjisinin) bir hissəsinin ayrılması hesabına çox qüvvətli partlayış yaradan aviasiya bombasıdır. Nüvə reaksiyaları (bölünmə və ya sintez reaksiyaları, yaxud hər ikisi birlikdə) nəticəsində qapalı həcmdə böyük miqdarda ayrılan nüvədaxili enerjidən baş verən partlayış təsirli silahların ümumi adıdır. Bu reaksiyalarda maddənin kütlə vahidindən ayrılan enerji adi partlayıcı maddədəkinə (trotildəkinə) nisbətən 20-80 milyon dəfə artıq olur. Son dərəcə sürətlə və külli miqdarda ayrılan enerji nüvə partlayışı kimi meydana çıxır və öz gücünə və zədələyici amillərinin (zərbə dalğası, işıq şüalanması, nüfuzedici radiasiya, radioaktiv zəhərlənmə və elektromaqnit impulsu) xarakterinə görə adi döyüş sursatlarının partlayışından fərqlənir.

Bu, nüvə silahının elmi izahıdır. Amma bunun bir də, real görünən tərəfi var. Dağıntıların miqyası, insan tələfatının sayı, fəsadların illərlə, bəlkə də əsrlərlə davam etməsi. Bunun bariz misalı 1945-ci ildə ABŞ tərəfindən Yaponiyaya atılmış nüvə bombalarıdır.

İlk nüvə bombaları barədə qısa arayış - məşhur danimarkalı fizik Nils Bor atomun quruluşu haqqında mükəmməl yaxın modeli qurduqdan sonra ABŞ-a tərəf yol alır. O, burada Albert Eynşteyn ilə görüşür. Amerikada toplanan avropalı alimlər bir araya gəlib, uranium parçalanmasını daha dərindən öyrənirlər. 1938-ci ildə, neytron bombardmanı ilə yeni radioaktiv izotoplar sintez etdiyi üçün, Enrico Fermiyə fizika Nobel mükafatı verilir. Artıq 1939-cu il - İkinci dünya müharibəsi astanada idi. Amerikadakı alimlər nasist Almaniyasının törədə biləcəklərindən narahat idilər. Bunun üçün də professor Fermi Vaşinqtonda general Leslie Grovesla görüşərək, Hitlerin tezliklə atom bombası hazırlatdıra biləcəyi xəbərini çatdırır. Atom bombasının kimyəvi bombalardan yüzlərlə qat daha güclü partlayacağını izah etməyə çalışsa da, general Grooves professoru ciddiyə almır. Ən maraqlısı isə odur ki, dünyanın sonunu gətirə biləcək elmi kəşflərə imza atan Fermi ingilis dilində çox zəif danışırdı deyə, Grooves onu yaxşı başa düşməmişdi. Yəni, ABŞ-ın ilk atomdan imtina səbəbi sırf texniki və təsadüfi səbəb idi. Ardından iki macar alim - Leo Szilard və Eugene Vegner, həmin ərəfələrdə yetərincə məhşurlaşmış Eynşteynə ABŞ Prezidenti Franklin Ruzveltə məktub yazmasını

### İlk "nüvə" necə yarandı?

təklif edirlər. Məktubu macar alimlər yazır, Eynşteyn isə imzalayır. Məktubda deyilir: "Enrico Fermi və Leo Szilardın atom parçalanması ilə bağlı araşdırmaları, məni, uran elementinin böyük ölçüdə enerji potensialına sahib olması haqqında düşündürür. Bu enerji yaxın zamanda əldə oluna bilər. Uranın artıq ölçüsünü alıb, nüvə zənciri reaksiyasını quraşdıra bilər və bunun nəticəsində böyük güc əmələ gətirə bilərik. Hətta, daha sonra, atom bombası da qura bilərik... Dünya tarixində ilk dəfə, insan oğlu günəş enerjisi resursundan istifadə etmədən, enerji daşıyan sistem təsis edəcək - 2 avqust, 1939-cu il".

Ruzvelt məktubu oxuduqdan dərhal sonra, bir sıra alimi özündə cəmləyən "Uran Komitəsi"nin qurulması qərarını verir. Bir az irəli gedib onu qeyd etmək olar ki, yaranan bu komitədə əsas simalardan olan, sonradan isə ABŞ-a iki dönəm prezidentlik edən Lindon Conson uranın zənginləşdirilməsində, atom bombalarının yaradılmasında, hətta çoxaldılmasında və Yaponiyaya atılmasında əhəmiyyətli rol oynamışdı.

Nəhayət, 6 dekabr 1941-ci ildə Yaponiyanın dəniz qüvvələri, ABŞ-ın Pearl Limanını bombalayır və cavab olaraq, ABŞ Yaponiyaya qarşı müharibə elan etdiyi xəbərini yayır. Yaponiyanın müttəfiqləri - Almaniya və İtaliya da ABŞ-a qarşı müharibə elan edirlər. Prezident Ruzvelt nüvə araşdırması üçün, on milyonlarla dollar vəsait ayırır. Professor Artur Compton bütün ABŞ-ın nüvə araşdırma rəhbəri təyin olunur. Leslie Groves, hərbi əməliyyatları genişləndirmək məqsədilə, "Manhetten layihəsi"ni qurur və Robert J. Oppenheimeri elmi rəhbər təyin edir. Bütün nüvə araşdırması aparan alimlər Çikaqo Universitetinə dəvət olunur. Professor Fermi Kolumbia Universitetindəki quraşdırdığı ilk nüvə reaktorunu daha da böyütmək məqsədilə Çikaqoya köçür. Nəticədə, layihənin adı "Çikaqo nüvə bombası" adlanır. Bu dəfə, ölçülər qat-qat böyükdür - 10 m x 20 m x 9 m uzunluqunda olan, çəkisi daha çox olan qrafit və uran daşıyan bu bomba, 57 qatdan ibarət idi. Çalışdıqları yerin adı "Metallurgiya Laboratoriyası" adlanırdı ki, heç kəs bu bölgəyə şübhə ilə yanaşmasın. Bu laboratoriyaya Fermi və köməkçiləri xaric heç kəs buraxılmırdı. Hətta onların həyat yoldaşları belə həmin laboratoriyaların yerini bilmirdi. 1942-ci il dekabrın 2-də "Çikaqo nüvə bombası" layihəsi yekunlaşır və Fermi nüvə zənciri reaksiyasını bir daha test edərək, güclü



### "Üç məxfi şəhər" layihəsi iki şəhəri dağıtdı

enerji ayrılmasının şahidi olur.

Müharibə planlarının bir digər layihəsi olan "Üç məxfi şəhər" (Three secret cities) adlı elmi araşdırmaya sürətlə keçid edilir. Layihəyə hərbi əməliyyatların tərkibində yer alan, Manhetten layihəsinin bir hissəsi kimi, general Leslie Groves tərəfindən ciddi şəkildə nəzarət edilir. Groves üç fərqli ştatda böyük ərazilər satın alaraq, nüvə reaksiyaları araşdırmalarına şərait yaradır. Qeyd edək ki, birinci məxfi şəhər - Oak Ridge, ikinci məxfi şəhər - Vaşinqton, üçüncü məxfi şəhər - Los Alamos idi.

6 avqust 1945-ci ildə isə Xirosimada 15 kiloton "Little Boy" adlı uran-235 atom bombası partladılır. Şəhər mərkəzini tamamilə sıradan çıxaran bu hadisə nəticəsində şəhər əhalisinin üçdə bir hissəsinə yaxın, yəni 120 min adam ölür. Geriyə qalan minlərlə adam isə mutasiyaya uğrayır, xərçəng xəstəliyinə tutulur və yaxud orqanlarından birini itirir.

3 gün sonra, 9 avqust 1945-ci ildə sabaha yaxın Naqasakidə, 45 kiloton çəkisindəki "Fat Man" adlı, plutonium-239 atom bombası partladılır. Xirosima bombasından üç qat daha ağır və urandan daha radioaktiv, plutonium bombasını şəhərin tam mərkəzinə düşürməyi tutdura bilməyən pilot, 80 min insanın ölümünə səbəb olur.

Tarixin bəlkə də "ironiyası", bəlkə də zərurətidir ki, 81 il öncə nüvə bombardmanına məruz qalan Yaponiya elə 81 il sonra da özü nüvə dövlətinə çevrilmək arzusunu dilə gətirdi. Ötən ay Yaponiyanın müdafiə naziri Şinyiro Koizumi bildirdi ki, Avropanın bəzi ölkələrinin daha çox nüvə çəkindirmə səyləri göstərməsi fonunda Tokionun da nüvə silahları ilə bağlı müzakirəyə ehtiyacı var. Halbuki Yaponiya 59 il idi ki, üç qeyri-nüvə prinsipinə (Three Non-Nuclear Principles) riayət edirdi.

Xatırladaq ki, hazırda dünyada nüvə silahına malik doqquz ölkə var - bunlar ABŞ, Rusiya, Çin, Birləşmiş Krallıq, Fransa, Hindistan, Pakistan, İsrail və Şimali Koreyadır. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SİPRİ) analitiklərinin məlumatına görə, 2026-cı ilin yanvar ayı etibarilə dünyada 12 min 187 nüvə başlığı var idi ki, bu da 2025-ci ilin yanvar ayındakı saydan 54 ədəd azdır. Bunlardan 9745-i hərbi ehtiyatlardadır - yerləşdirilən döyüş başlıqları və əməliyyat yerləşdirmə qabiliyyətinə malik anbarlarda saxlanılır. Ballistik raketlərə yerləşdirilən 2100 ilə 2200 arasında döyüş başlığı isə yüksək əməliyyat hazırlığındadır. Yaponiya nüvə silahına sahib olacağı təqdirdə siyahıda 10-cu ölkə olacaq...

### 81 il sonra...

**Pərviz SADAYOĞLU**

# 7-ci görüş...

## İsrail və Livan nümayəndələri arasında növbəti "Roma raundu"

Avqustun 4-6 aralığında ABŞ-ın İtaliyanın paytaxtı Roma şəhərindəki səfirliyində İsrail və Livan nümayəndə heyətləri arasında növbəti danışıqlar prosesi reallaşır. Qeyd edək ki, bu, ABŞ-ın vasitəçiliyi ilə baş tutan 7-ci görüşdür. Danışıqlar Vaşinqtondakı İsrail və Livan səfirləri ABŞ-ın vasitəçiliyi ilə danışıqlara hazırlıq məqsədilə 14 və 23 aprel tarixlərində baş tutan görüşlə start götürmüşdü. Vaşinqtonda keçirilən 5-ci danışıqlardan sonra iyunun 26-da Livan və İsrail arasında "çərçivə müqaviləsi" imzalanmışdı. İsrail və Livan arasında birbaşa danışıqların altıncı raundu isə 4-15 iyul tarixlərində İtaliyanın paytaxtı Romada keçirilib.

Budəfəki "raundun" əsas müzakirə predmetidə iyun ayında imzalanan çərçivə sazişinin icrası, təhlükəsiz zonalar və Hizbullah təşkilatının tərksilah edilməsi məsələlərinə yönəldilib.

Qeyd edək ki, ABŞ-ın vasitəçiliyi ilə baş tutan danışıqların yeni mərhələsinin məqsədi Livanın cənub sərhədinin təhlükəsizliyi və sabitləşdirilməsi ilə bağlı razılaşmaya doğru kövrək irəliləyişi möhkəmləndirməkdir. 2 gün ərzində baş tutan müzakirələrdə hər iki tərəfdən texniki qruplar iştirak edib və görüş Vaşinqton tərəfindən dəstəklənən üçtərəfli çərçivə sazişinin həyata keçirilməsində əsas addım kimi xarakterizə olunub.

### 3 əsas mövzu...

Qeyd edək ki, danışıqların motivi əsasən üç əsas mövzuya yönəlib:

- Livanın cənubundakı təhlükəsiz zonaların gələcəyi;
- Sərhəd mübahisələrinin həlli;
- ABŞ-ın davamlı həll üçün vacib hesab etdiyi Hizbullahın tərksilah edilməsi.

Danışıqlara start verilən güc Hizbullah lideri Naim Qasim qrupun iyunun sonunda Vaşinqtonda Beyrut və İsrail arasında imzalanan çərçivə sazişinə qarşı olduğunu yenidən təkrarlayıb. Maraqlıdır ki, bu sazişə əks çıxan yalnız Hizbullah deyil - Livan parlamentinin sədri sədri Nəbi Bərrinin rəhbərlik etdiyi Əməl Hərəkatı da bu danışıqlara birmənalı şəkildə müxalifliyini ortaya qoyub. Livanın Baş naziri Nəvaf Salam isə buna cavab olaraq bildirib ki, "İsrailə ən böyük dəstəyi verənlər Livanı "dəstək" bəhanəsi ilə absurd hərbi macəralara sürükləyənlərdir və bununla da ölkəmizə hücum etmək, onun suverenliyini tapdamaq, şəhər və kəndləri dağıtmaq, uşaqları öldürmək və yüz minlərlə insanın zorla didərgin salınması üçün bəhanə yaradırlar".



"Times of Israel" qəzetinin məlumatına görə, İsrail nümayəndə heyətinə İsrail Müdafiə Qüvvələrinin (İMQ) nümayəndələri də daxildir. Vaşinqton siyasi öhdəlikləri İsrailin təhlükəsizliyini təmin edəcək, eyni zamanda Livan dövlətinin öz ərazisindəki nüfuzunu gücləndirəcək addım-addım, praktik bir plana çevirməyə çalışır. ABŞ Dövlət Departamentinin məlumatına görə, müqavilə Livan Silahlı Qüvvələrinin (LSQ) ölkənin cənubuna tam nəzarəti tədricən ələ keçirəcəyini və bütün silahların dövlətin müstəsna nəzarəti altına alınacağını nəzərdə tutur. Eyni zamanda, İsraildən qoşunlarını sözdə pilot zonalarından və sərhəd boyunca yaradılmış təhlükəsizlik zolaqlarından çıxarmaq və bu prosesi Livan

### ABŞ razıdır...

tərəfinin öhdəliklərini yerinə yetirməsi ilə sinxronlaşdırmaq tələb olunacaq.

ABŞ Dövlət Departamentinin mənbəsi məsələni belə izah edib: "Məqsədimiz çərçivə sazişini praktiki və mərhələli şəkildə həyata keçirmək, hər iki ölkə üçün uzunmüddətli təhlükəsizliyi təmin etmək və Livan dövlətinin cənubda nüfuzunu bərpa etməkdir".

Vaşinqton bu mexanizmi "davamlı sülhə aparan yeganə yol" adlandırmağa davam edir və Tramp administrasiyasının bu prosesin tamamlanmasına dəstəyini nümayiş etdirir.

### Ən həssas məsələ - Hizbullah...

Vurğulandığı kimi, danışıqlarda ən həssas məsələ Hizbullah məsələsidir. Amerika Birləşmiş Ştatları Livanın cənubundakı hərəkatın hərbi infrastrukturunun dağıdılmasında və bütün silahlı imkanların dövlət qurumlarının nəzarətinə verilməsində israrlıdır. İsrailin prioriteti növbəti hücumların qarşısını almaq üçün sərhəddə hərbi mövcudluğu və ya ən azı real təhlükəsizlik zəmanətini saxlamaqdır.

Beyrut da öz növbəsində yeni daxili gərginlik yaratmadan ərazi üzərində tam suveren nəzarəti həyata keçirməyə qadir olduğunu sübut etmək niyyətindədir. Qeyd edək ki, ötən həftə İsrail ordusu yeni danışıqlar prosesi çərçivəsində pilot zonadan çıxarılmasının birinci mərhələsini tamamlayıb. Bununla belə, Livan hökuməti İsraili onun silahlı qüvvələrinin bölgədəki hərəkətlərinə müdaxilə etməkdə və bununla da ordunun tam şəkildə yerləşdirilməsini gecikdirməkdə ittiham edib. Beləliklə, "Roma raundu" son dərəcə həssas bir anda keçirilir: bir tərəfdən ABŞ atəşkəs və ilkin razılaşmaları davamlı təhlükəsizlik arxitekturasına çevirməyə çalışır, digər tərəfdən isə İsrail, Livan və Hizbullah arasında gərginlik hələ də həll prosesindən uzaqda olmaqda davam edir.

### Əl-Hədət: Livandan İsrailə "pilot zonalar" təklifi

Əl-Hədət televiziyası rəsmi Livan mənbəyinə istinadən Roma danışıqları ilə bağlı məlumat yayıb. Məlumata dair bildirilib ki, ABŞ-ın vasitəçiliyi ilə İsraillə Romada keçirilən danışıqların son mərhələsində Livan nümayəndə heyəti İsrail qüvvələrinin geri çəkilməsi üçün yeni "pilot zonalar" yaratmaq təklifini irəli sürüb. Mənbə bildirib ki, "Livan böyük "pilot zonalar" yaratmağı təklif edib ki, bunun həyata keçirilməsi üçün icra mexanizminin inkişaf etdirilməsi və texniki aspektlərin hərtərəfli işlənməsi tələb olunacaq". Mənbənin sözlərinə görə, Livan tərəfi Ərəb Respublikasının cənubunda yerləşən yaşayış məntəqələri olan Bint Cbeyl və Əl-Xiyamı pilot əraziləri kimi təklif edib. Eyni zamanda, mənbə aydınlaşdırıb ki, imtina edildiyi təqdirdə alternativ variantlar mövcuddur.

Kanalın məlumatına görə, Livan tərəfinin danışıqlarda ilk tələbi İsrailin atəşkəs müqaviləsini pozmasının aradan qaldırılması olub. Rəsmi Beyrut həmçinin atəşkəs tələbinin İsrailin siyasi rəhbərliyinə çatdırılmasında israr edib.

### İsrail Livanla sərhədləri yenidən nəzərdən keçirməyə hazırdır

Livanın "Nida Al Watan" nəşri də bildirib ki, Romada İsraillə danışıqlarda Livan nümayəndə heyəti atəşkəsin bərpa olunmasını və Beyrutun İsrailin pozuntuları olduğunu iddia etdiyi hallara son qoyulmasını tələb edib. Bu məsələ prioritet kimi müəyyən edilib. Qəzetin mənbələrinə görə, Amerika nümayəndələri Livanın mövqeyini dəstəkləyərək atəşkəsə riayət olunmasının danışıqlarda daha da irəliləyiş üçün vacib şərt olduğunu bildiriblər. Qəzet qeyd edib ki, görüş zamanı İsrail nümayəndə heyəti quru sərhədi məsələsində ilk dəfə əvvəlki mövqeyini dəyişib və beynəlxalq sərhədin yenidən nəzərdən keçirilməsi imkanını müzakirə etməyə hazır olduqlarını bildirib. Bu baxımdan, Livan nümayəndə heyətinə beynəlxalq hüquqşünas da daxil edilib.

**SADİQ**

# NATO-nun yeni təhlükəsizlik fəlsəfəsi

## Qərbin strategiyası necə dəyişir?

XXI əsrin ilk rübü başa çatarkən beynəlxalq münasibətlər sistemi yenidən fundamental transformasiya mərhələsinə daxil olur. Son otuz il ərzində qlobal təhlükəsizlik arxitekturasını müəyyən edən əsas prinsiplər artıq əvvəlki kimi işlək görünmür. “Soyuq müharibə”nin başa çatmasından sonra formalaşmış və Qərbin strateji üstünlüyünə əsaslanan təhlükəsizlik modeli Ukrayna müharibəsi, Yaxın Şərqdə artan gərginlik, Çin-ABŞ rəqabətinin dərinləşməsi, süni intellekt və kibertexnologiyaların hərbi tətbiqinin sürətlənməsi fonunda ciddi sınaq qarşısındadır. Bu səbəbdən Ankara NATO Sammitini yalnız növbəti diplomatik toplantı kimi qiymətləndirmək doğru olmaz. Bu sammit əslində NATO-nun növbəti onilliklər üçün strateji transformasiyasının siyasi manifesti kimi çıxış edir.

1949-cu ildə yaradılmış NATO tarixində bir neçə dəfə fundamental dəyişikliklər yaşayıb. İlk mərhələ Sovet İttifaqının çəkindirilməsi idi. 1991-ci ildən sonra Alyans Balkanlarda, Əfqanıstanda və terrorizmlə mübarizə əməliyyatlarında fəaliyyət göstərən ekspedisiya təhlükəsizlik modelinə keçdi. Lakin 2022-ci ildən sonra başlayan geosiyasi dəyişikliklər NATO-nu üçüncü transformasiya mərhələsinə gətirib. Bu mərhələnin əsas xüsusiyyəti ondan ibarətdir ki, Alyans artıq yalnız hərbi ittifaq kimi fəaliyyət göstərmir, sənaye, texnologiya, logistika və iqtisadi dayanıqlığı özündə birləşdirən kompleks təhlükəsizlik sistemi qurmağa çalışır.

Ankara Sammiti çərçivəsində aparılan müzakirələrin mərkəzində məhz bu məsələ dayanırdı. NATO Baş katibi Mark Rutte sammit ərəfəsində müdafiə sənayesində “inqilab” zərurətindən danışaraq Alyansın yalnız daha çox vəsait xərcləməsinin yox, həm də daha sürətli istehsal etməsinin vacibliyini vurğuladı. Onun fikrincə, mövcud təhlükəsizlik mühiti müdafiə sənayesinin genişləndirilməsini və innovasiyanın sürətləndirilməsini tələb edir.

Bu yanaşma təsadüfi deyil. Ukrayna müharibəsi NATO ölkələrinə çox mühüm bir həqiqəti göstərdi. Müharibələr yalnız orduların hazırlıq səviyyəsi ilə yox, iqtisadiyyatın istehsal qabiliyyəti ilə də müəyyən olunur. İlk aylarda artilleriya sursatı, hava hücumundan müdafiə sistemləri və digər hərbi təchizat üzrə istehsal gücünün yetməməsi Avropa ölkələrinin uzun illər müdafiə sənayesinə kifayət qədər investisiya qoymadığını üzə çıxardı. “Reuters”-in müdafiə üzrə tanınmış jurnalistləri Andrew Gray və Sabine Siebold qeyd edirlər ki, Ankara Sammitinin əsas gündəmi məhz müdafiə istehsalının genişləndirilməsi, sənaye potensialının artırılması və üzv dövlətlərin daha böyük maliyyə öhdəlikləri götürməsi idi.

Burada diqqətçəkən başqa mühüm məqam müdafiə xərclərinə yanaşmanın dəyişməsidir. Uzun illər NATO daxilində əsas meyar ümumi daxili məhsulun 2 faizinin müdafiəyə ayrılması idi. Lakin təhlükəsizlik mühitinin dəyişməsi nəticəsində Alyans daha iddialı hədəflər müəyyən etməyə başlayıb. Yeni yanaşmaya əsasən üzv dövlətlərin 2035-ci ilədək ÜDM-in 5 faizinə qədər müdafiə və təhlükəsizliklə əlaqəli xərclər həyata keçirməsi nəzərdə tutulur. Bu modelin 3,5 faizi birbaşa hərbi ehtiyaclara, 1,5 faizi isə kritik infrastruktur, kibertəhlükəsizlik, logistika, innovasiya və dayanıqlıq kimi sahələrə yönəldilməlidir.

Bu rəqəmlər ilk baxışda sadəcə büdcə göstəricisi kimi görünə bilər. Əslində isə onlar Qərbin təhlükəsizlik fəlsəfəsində baş verən ən böyük dəyişikliklərdən birini əks etdirir. NATO artıq təhlükəsizliyi yalnız tank, təyyarə və raketlə ölçmür. Limanların mühafizəsi, enerji şəbəkələrinin dayanıqlığı, fiber-optik rabitə xətləri, peyk sistemləri, mikroçip istehsalı, süni intellekt infrastrukturu və kibermüdafiə də eyni təhlükəsizlik konsepsiyasının tərkib hissəsi hesab edilir.

Bu dəyişiklik təsadüfi deyil. Müasir müharibələr göstərdi ki, dövləti zəiflətmək üçün artıq yalnız hərbi hücum kifayət etmir. Enerji sisteminə qarşı kiberhücum, limanların fəaliyyətinin dayanması, peyk rabitəsinin pozulması və ya kritik istehsal zəncirinin qırılması da strateji nəticələr doğura bilər. Buna görə NATO təhlükəsizlik anlayışını genişləndirərək iqtisadi dayanıqlığı və texnoloji üstünlüyü kollektiv müdafiənin ayrılmaz elementi kimi qəbul etməyə başlayıb.

Bu proses ABŞ-ın strateji yanaşması ilə də sıx bağlıdır. Vaşinqton Avropanın təhlükəsizliyindən imtina etmir, lakin qitə dövlətlərinin öz müdafiəsinə daha çox sərmayə yatırmasını tələb edir. “Associated Press”-in NATO üzrə təcrübəli jurnalisti Lorne Cook yazır ki, ABŞ administrasiyası Avropa müttəfiqlərinin müdafiə yükünü daha çox öz üzərinə götürməsini Alyansın uzunmüddətli dayanıqlığının əsas şərtlərindən biri sayır.

Bu yanaşma Avropa daxilində də ciddi müzakirələr doğurur. “Financial Times” son təhlillərində qeyd edir ki, Avropa artıq ilk dəfə real şəkildə ABŞ-dan daha müstəqil müdafiə imkanlarının formalaşdırılması barədə düşünməyə başlayıb. Bunun səbəbi Vaşinqtondan uzaqlaşmaq deyil, təhlükəsizlik risklərinin çoxalması fonunda öz hərbi potensialını artırmaq zərurətidir. Eyni zamanda qəzet vurğulayır ki, yaxın perspektivdə ABŞ-ın texnoloji və hərbi imkanlarını tam əvəz etmək Avropa üçün real görünmür.

Ankara Sammitinin ən mühüm nəticələrindən biri də məhz budur: NATO artıq klassik hərbi ittifaqdan daha geniş təhlükəsizlik platformasına çevrilir. Burada söhbət yalnız kollektiv müdafiədən getmir. Alyans müdafiə sənayesini, texnologiya siyasətini, logistikanı, kritik infrastrukturun qorunmasını və innovasiya ekosistemini vahid təhlükəsizlik sisteminin elementləri kimi qəbul edir. Bu, NATO tarixində ən ciddi konseptual dəyişikliklərdən biridir.

## Alyansın yeni iqtisadi strategiyası

Ankara NATO Sammiti ətrafında aparılan müzakirələrin böyük hissəsi müdafiə xərclərinin artırılması üzərində cəmləşsə də, bu qərarın arxasında duran strateji məntiq daha mürəkkəbdir. Məsələ yalnız Alyansın hərbi imkanlarının genişləndirilməsi deyil. Əslində, NATO daxilində baş verən dəyişikliklər transatlantik münasibətlərin yeni iqtisadi modelə keçidini göstərir. ABŞ artıq Avropaya əvvəlki kimi yalnız təhlükəsizlik təminatçısı kimi yanaşmır; Vaşinqton Avropanın daha çox məsuliyyət daşıyan, daha çox istehsal edən və daha çox investisiya yatıran strateji tərəfdaşa çevrilməsini istəyir. Bu yanaşma son illər təkcə respublikaçı yox, demokrat administrasiyalar dövründə də müxtəlif formalarda ifadə olunub. Fərq yalnız ritorikadır; strateji istiqamət isə böyük ölçüdə dəyişməyib.

“Soyuq müharibə”nin başa çatmasından sonra Avropa uzun müddət “sülh dividendi” adlandırılan iqtisadi üstünlükdən istifadə etdi. SSRİ-nin dağılması ilə genişmiqyaslı quru müharibəsi riski azaldığından, bir çox ölkə müdafiə büdcəsini tədricən azaldıb, həmin vəsaitləri sosial təminata, səhiyyəyə, təhsilə və infrastruktur layihələrinə yönəltdi. Almaniya, İtaliya, Belçika və digər dövlətlər üçün bu model iqtisadi baxımdan səmərəli görünürdü. ABŞ isə Avropadakı hərbi bazalarını saxlayır, nüvə çəkindirməsini təmin edir və NATO-nun əsas hərbi yükünü daşımağa davam edirdi.

Lakin Ukrayna müharibəsi bu balansı dəyişdirdi. Müharibənin ilk mərhələlərində Avropa dövlətlərinin sursat ehtiyatlarının sürətlə tükənməsi, artilleriya mərmiləri istehsalının tələbatı ödəyə bilməməsi və bir sıra kritik sistemlər üzrə ABŞ-dan asılılıq NATO daxilində ciddi narahatlıq yaratdı. “Reuters”-in müdafiə məsələləri üzrə jurnalistləri yazırlar ki, Ankara Sammitinə qədər aparılan danışıqlarda əsas məqsədlərdən biri Avropanın müdafiə sənayesinin istehsal gücünü artırmaq və uzunmüddətli hərbi hazırlıq üçün dayanıqlı sənaye bazası yaratmaq idi.

Bu kontekstdə müdafiə xərclərinin artırılması barədə qəbul edilən qərar yalnız hərbi qərar deyil, eyni zamanda iqtisadi qərardır. NATO-nun 2025-ci ildə Haaqa Sammitində razılaşdırdığı və Ankara Sammitində də əsas istiqamət kimi təsdiqlənən yanaşmaya görə, üzv dövlət 2035-ci ilədək ümumi daxili məhsulun 5 faizi qədərində müdafiə və təhlükəsizliklə bağlı investisiya həyata keçirməlidir. Dediyimiz kimi, bunun 3,5 faizi klassik müdafiə ehtiyaclarına, 1,5 faizi isə kritik infrastrukturun qorunması, kibertəhlükəsizlik, hərbi mobillik, müdafiə sənayesinin inkişafı və cəmiyyətin dayanıqlığı kimi istiqamətlərə ayrılmalıdır.

Bu rəqəmlərin arxasında daha geniş iqtisadi strategiya dayanır. Müasir hərbi sənaye artıq yalnız tank və döyüş təyyarəsi istehsal edən müəssisələrdən ibarət deyil. Beşinci nəsil döyüş təyyarəsinin hazırlanması yüzlərlə şirkətin, onlarla universitetin, minlərlə mühəndisin və proqram təminatı üzrə mütəxəssisin iştirak etdiyi mürəkkəb istehsal zənciridir. Eyni vəziyyət hava hücumundan müdafiə sistemləri, pilotsuz uçuş aparatları, peyk rabitəsi və kibertexnologiyalar üçün də keçərlidir. Bu səbəbdən müdafiə sənayesinə yatırılan investisiya yalnız hərbi potensialı artırmır; o, ölkənin elmi-tədqiqat potensialını, yüksək texnologiyalar sektorunu və sənaye məhsuldarlığını da gücləndirir.

Məhz buna görə NATO-nun Baş katibi Mark Rutte müdafiə nazirlərinin 2025-ci il iclasında, daha sonra Ankara Sammiti ərəfəsində “müdafiə sənayesində inqilab” ifadəsini işlədərək əsas problemin təkcə maliyyə çatışmazlığı deyil, istehsal sürəti olduğunu vurğulamışdı. Onun fikrincə, Alyans kifayət qədər sürətli istehsal edə bilməzsə, ayrılan əlavə vəsait də gözlənən nəticəni verməyəcək.

Burada diqqətçəkən başqa bir məsələ ABŞ-ın iqtisadi maraqlarıdır. Bəzən belə iddia olunur ki, Vaşinqton Avropanın müdafiə xərclərini yalnız Amerika silahlarını satmaq üçün artırır. Bu yanaşma həddindən artıq sadələşdirilib. Doğrudur, Lockheed Martin, RTX, Northrop Grumman, General Dynamics kimi ABŞ şirkətləri artan müdafiə sifarişlərindən iqtisadi fayda əldə edir, lakin ABŞ-ın strateji marağı bundan daha genişdir. Vaşinqton istəyir ki, NATO-nun Avropa qanadı böhran zamanı ABŞ-dan tam asılı qalmasın. Güclü Avropa müdafiə sənayesi ABŞ üçün rəqib deyil, əksinə, Alyansın ümumi dayanıqlığını artıran amildir. Bu səbəbdən son illərdə ABŞ rəsmiləri Avropanın müdafiə istehsalını artırmasını tənqid etmək əvəzinə, onu təşviq etməyə başlayıblar.



Bununla yanaşı, Avropanın qarşısında mühüm struktur problemləri qalır. “Financial Times” qeyd edir ki, qitə müdafiə xərclərini artırsa da, istehsal sistemi hələ də parçalanmış vəziyyətdədir. Müxtəlif ölkələr oxşar silah sistemlərini paralel şəkildə inkişaf etdirir, satınalma mexanizmləri fərqlənir və müdafiə bazarı tam inteqrasiya olunmayıb. Bu isə istehsalın maya dəyərini artırır, innovasiyanın yayılmasını ləngidir. Qəzetin təhlilinə görə, Avropa müdafiə sahəsində daha böyük muxtariyyət əldə etmək istəyirsə, yalnız büdcələri deyil, sənaye idarəçiliyini də dəyişməlidir.

Ankara Sammitində Türkiyənin xüsusi çəkisi məhz bu kontekstdə artdı. Son on beş ildə Ankara müdafiə sənayesini milli inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevirdi. Pilotsuz uçuş aparatları, elektron mübarizə sistemləri, raket texnologiyaları, hərbi gəmiqayırma və aviasiya layihələri Türkiyəyə yalnız yeni ixrac bazarları açmadı, həm də NATO daxilində onu mühüm sənaye tərəfdaşına çevirdi. “Reuters” qeyd edir ki, sammit zamanı Türkiyə ilə bağlı sanksiyaların yumşaldılması, müdafiə əməkdaşlığının genişləndirilməsi və F-35 proqramı ilə bağlı siyasi dialoqun yenidən gündəmə gəlməsi də məhz bu dəyişən geosiyasi reallığın nəticəsi kimi qiymətləndirilir. Bununla belə, F-35 məsələsi üzrə yekun qərar hələ qəbul edilməyib, qərarın taleyi gələcək danışıqlardan asılı olacaq.

NATO qarşıdakı onillikdə yalnız hərbi ittifaq kimi fəaliyyət göstərməyəcək. Alyansın prioritetləri sırasında müdafiə sənayesinin modernləşdirilməsi, texnoloji innovasiyanın sürətləndirilməsi, kritik infrastrukturun qorunması və iqtisadi dayanıqlığın artırılması xüsusi yer tutur. Bu dəyişiklik beynəlxalq münasibətlərdə yeni mərhələnin başlanğıcıdır. XXI əsrdə təhlükəsizlik anlayışı iqtisadiyyat, texnologiya və sənaye siyasətindən ayrılmır, əksinə, bu sahələr bir-birini tamamlayan vahid strateji sistemə çevrilir.

## Türkiyə NATO-nun periferiyasından strateji mərkəzinə doğru

Beynəlxalq münasibətlərdə dövlətin gücü yalnız hərbi büdcə, iqtisadi göstəricilər və ya əhali sayı ilə müəyyən edilmir. Tarix göstərir ki, bəzi dövlətlər coğrafi mövqelərinə, siyasi çevikliklərinə və strateji qərarvermə qabiliyyətlərinə görə qlobal siyasətdə öz iqtisadi imkanlarından qat-qat böyük rol oynaya bilir. Türkiyə son iyirmi ildə məhz belə dövlətlərdən birinə çevrilib. Ankara NATO daxilində artıq yalnız cənub cinahını qoruyan üzv ölkə kimi deyil, Avropa, Qara dəniz, Yaxın Şərq, Cənubi Qafqaz və Şərqi Aralıq dənizini birləşdirən geosiyasi qovşaq kimi qiymətləndirilir.

Bu dəyişiklik təsadüfi deyil. Soyuq müharibə dövründə Türkiyənin əsas funksiyası Sovet İttifaqının cənub sərhədlərinin nəzarətdə saxlanması idi. 1952-ci ildə NATO-ya qəbul edilən Türkiyə Alyansın ən şərqdə yerləşən üzvü kimi Qərbin təhlükəsizlik strategiyasında mühüm yer tuturdu. Lakin SSRİ dağıldıqdan sonra uzun müddət belə hesab edilirdi ki, Türkiyənin strateji əhəmiyyəti müəyyən qədər azalacaq. Hadisələrin sonrakı inkişafı bunun tam əksini göstərdi.

XXI əsrin ilk rübündə baş verən geosiyasi proseslər Türkiyənin əhəmiyyətini daha da artırdı. Qara dənizdə təhlükəsizlik balansının dəyişməsi, Yaxın Şərqdə silahlı münaqişələrin genişlənməsi, enerji marşrutlarının şaxələndirilməsi, Cənubi Qafqazda yeni geosiyasi reallığın formalaşması və Çinlə Avropa arasında alternativ ticarət marşrutlarının inkişafı Ankaranı Avrasiyanın ən mühüm tranzit və təhlükəsizlik mərkəzlərindən birinə çevirdi.

ABŞ-ın tanınmış strateqi və keçmiş dövlət katibi Henri Kissincer hələ illər əvvəl yazırdı ki, coğrafiya dövlətlərin dəyişdirə bilmədiyi yeganə strateji amildir. Onun fikrincə, Avrasiya məkanına nəzarət edən əsas keçid nöqtələri qlobal siyasətin taleyini müəyyən edir. Bu yanaşma bu gün də aktuallığını saxlayır. Türkiyə Bosfor və Dardanel boğazlarına nəzarət etməklə Qara dənizi Aralıq dənizi ilə birləşdirən yeganə dövlət olaraq qalır. Bu, yalnız ticarət baxımından deyil, hərbi-strateji baxımdan da əvəzolunmaz üstünlükdür.

1936-cı ildə imzalanmış Montrö Boğazlar Konvensiyası bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Konvensiya Türkiyəyə boğazlar üzərində müəyyən nəzarət səlahiyyətləri verir və müharibə şəraitində hərbi gəmilərin keçidini tənzimləmək hüququ tanıyır. Ukrayna müharibəsi başlanandan sonra Ankara məhz bu konvensiyanın müddəalarına əsaslanaraq boğazlardan yeni hərbi gəmilərin keçidini məhdudlaşdırdı. Bu qərar beynəlxalq hüquq çərçivəsində qəbul olunsa da, onun geosiyasi təsiri son dərəcə böyük idi. NATO da, Rusiya da göstərilən hüquqi mexanizmi nəzərə almağa məcbur oldu.

Ankaranın artan əhəmiyyəti yalnız coğrafiya ilə izah edilə bilməz. Əgər 1990-cı illərdə Türkiyə əsasən xarici silah tədarükündən asılı idisə, bu gün tamamilə fərqli mənzərə yaranıb. Son iyirmi ildə ölkə müdafiə sənayesinə sistemli şəkildə investisiya qoyaraq daxili istehsal imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. ASELSAN, ROKETSAN, TUSAŞ, HAVELSAN, Baykar və digər şirkətlər artıq yalnız Türkiyə Silahlı Qüvvələrinin ehtiyaclarını ödəməklə kifayətlənmir, onlarla ölkəyə müdafiə məhsulları ixrac edir.

Türkiyə Müdafiə Sənayesi Agentliyinin (SSB) məlumatına görə, ölkənin müdafiə və aviasiya sənayesi ixracı son illərdə rekord səviyyələrə yüksəlib və müdafiə məhsulları artıq Türkiyənin yüksək texnologiyalı ixracının əsas istiqamətlərindən birinə çevrilib. Bu inkişaf NATO daxilində də diqqətlə izlənir. “Reuters” və digər beynəlxalq agentliklər qeyd edir ki, pilotsuz uçuş aparatları sahəsində əldə olunan uğurlar Türkiyənin Alyans daxilində texnoloji nüfuzunu əhəmiyyətli dərəcədə artırıb.

Burada xüsusi vurğulanmalı məqamlardan biri də NATO-nun hərbi potensialı daxilində Türkiyənin yeri ilə bağlıdır. Tez-tez “Türkiyə NATO-nun ikinci ən böyük ordusuna malikdir” ifadəsi işlədilir. Əslində, bu ifadəyə ehtiyatla yanaşmaq lazımdır. NATO rəsmi olaraq üzv dövlətləri “birinci”, “ikinci” və ya “üçüncü” ordu kimi təsnif etmir. Bununla belə, açıq mənbələrdəki məlumatlar göstərir ki, Türkiyə şəxsi heyətin sayı baxımından Alyansın ən böyük silahlı qüvvələrindən birinə malikdir və ABŞ-dan sonra ən böyük daimi hərbi kontingentlərdən biri hesab olunur. Bu amil Ankaranın NATO-nun əməliyyat planlaşdırılmasında xüsusi rol oynamasına səbəb olur.

ABŞ ilə münasibətlər isə daha mürəkkəb xarakter daşıyır. Son on ildə Vaşinqton və Ankara arasında müəyyən fikir ayrılıqları ortaya çıxıb. S-400 zenit-raket sistemlərinin alınması, Suriya siyasəti, F-35 proqramı və digər məsələlər ikitərəfli münasibətlərdə gərginlik yaradıb. Bununla belə, beynəlxalq siyasətdə strateji maraqlar taktiki fikir ayrılıqlarından daha uzunömürlü olur. “Brookings Institution”-un eksperti Amanda Sloat və “Council on Foreign Relations”-ın Türkiyə üzrə tədqiqatçısı Steven A. Cook təhlillərində vurğulayırlar ki, ABŞ və Türkiyə arasında fikir ayrılıqları ciddi olsa da, hər iki tərəf NATO çərçivəsində əməkdaşlığın strateji əhəmiyyətini qəbul edir. Onların qiymətləndirməsinə görə, Qara dəniz, Yaxın Şərq, enerji marşrutları və regional təhlükəsizlik məsələləri Vaşinqtonla Ankara arasında dialoqun davam etməsini zərurətə çevirir.

Bu baxımdan Ankara Sammiti mühüm siyasi siqnal verdi. Sammit göstərdi ki, ABŞ Türkiyəni alternativi olmayan strateji tərəfdaş kimi görməyə davam edir. Bu, bütün fikir ayrılıqlarının aradan qalxdığı anlamına gəlmir. Lakin geosiyasi reallıq hər iki ölkəni əməkdaşlığı davam etdirməyə sövq edir. Bu proses Azərbaycanın mövqeyinə də birbaşa təsir göstərir.

Azərbaycanla Türkiyə arasında münasibətlər klassik müttəfiqlik çərçivəsini xeyli aşır. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi iki ölkənin təhlükəsizlik, müdafiə, enerji, nəqliyyat və xarici siyasət sahələrində koordinasiyasını daha yüksək səviyyəyə qaldırdı. Bu tərəfdaşlıq fonunda Azərbaycanın Orta Dəhliz, Trans-Xəzər nəqliyyat marşrutu və Avropanın enerji təhlükəsizliyi üçün artan əhəmiyyəti Türkiyənin NATO daxilində yüksələn rolu ilə qarşılıqlı şəkildə tamamlanır.

Əgər XXI əsrin geosiyasətində əsas rəqabət enerji, logistika və texnologiya üzərində gedəcəksə, Türkiyə və Azərbaycan bu prosesdə yalnız regional deyil, Avrasiya miqyasında strateji əhəmiyyət daşıyan aktorlar kimi çıxış edəcək. Məhz bu səbəbdən Ankara Sammiti yalnız NATO-nun daxili toplantısı kimi yox, həm də Qara dənizdən Xəzər hövzəsinə qədər uzanan geniş geosiyasi məkanın gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm siyasi hadisə kimi qiymətləndirilməlidir.

**davamı növbəti sayımızda**



***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi,***
***beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Vətənlə bağları möhkəmləndirən layihə

## Diaspor gənclərini birləşdirən düşərgə...

Müasir dövrdə dövlətlərin gücü təkcə iqtisadi və hərbi imkanları ilə deyil, həm də dünyanın müxtəlif ölkələrində yaşayan soydaşları ilə qurduğu möhkəm əlaqələrlə ölçülür. Bu baxımdan diaspor siyasəti Azərbaycanın maraqlarının qorunmasında mühüm istiqamətlərdən biridir. Hər il təşkil olunan Diaspor Gənclərinin Yay Düşərgəsi də bu siyasətin uğurlu layihələrindən biri kimi diqqət çəkir. Bu il keçirilən VII Diaspor Gənclərinin Yay Düşərgəsi müxtəlif ölkələrdən gələn azərbaycanlı gəncləri bir araya gətirərək onların Vətənlə bağlarını daha da gücləndirdi.

Düşərgə iştirakçıları Azərbaycanın tarixi, mədəniyyəti, dövlətçilik ənənələri və müasir inkişafı ilə bağlı geniş məlumat əldə edirlər. Onlar işğaldan azad edilmiş ərazilərə səfərlər edir, aparılan genişmiqyaslı bərpa və quruculuq işləri ilə tanış olurlar. Bu səfərlər xaricdə yaşayan gənclərin ölkədə baş verən dəyişiklikləri öz gözləri ilə görməsinə imkan yaradır. .

Diaspor gənclərinin bir araya gəlməsi müxtəlif ölkələrdə fəaliyyət göstərən azərbaycanlı icmalar arasında əməkdaşlığın genişlənməsinə də töhfə verir. Burada yaranan əlaqələr gələcəkdə ortaq layihələrin həyata keçirilməsinə, mədəni tədbirlərin təşkilinə və beynəlxalq platformalarda daha sıx əməkdaşlığa zəmin yaradır. Bu isə Azərbaycan diasporunun daha mütəşəkkil və təsirli fəaliyyət göstərməsinə kömək edir.

Belə layihələr gənclərdə milli mənsubiyyət hissini gücləndirir. Xaricdə doğulub boya-başa çatan və ya uzun illər Azərbaycandan kənarda yaşayan gənclər bu düşərgə vasitəsilə öz köklərinə daha yaxından bağlanırlar. Ana dilinə, milli-mənəvi dəyərlərə və Azərbaycan mədəniyyətinə maraq artır. Bu isə milli irsin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Avqustun 8-nə qədər Şərqi Zəngəzur iqtisadi rayonunda "Dirçələn şəhərlər" şüarı ilə Diaspor Gənclərinin 7-ci Yay Düşərgəsi keçirilir. Avqustun 2-dən etibarən başlayan düşərgədə iştirak etmək üçün dünyanın 64 ölkəsindən 123 azərbaycanlı gənc və Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri ölkəmizə gəliblər. Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, "Şəhərsalma və Memarlıq İli"nə həsr olunan düşərgə Komitənin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə keçirilir.

Proqram çərçivəsində gənclərə Heydər Əliyevin dövlət quruculuğu, milli birliyin möhkəmləndirilməsi və diaspor siyasətinin formalaşdırılması istiqamətində xidmətləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlərin qəhrəmanlığı, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər və postmüharibə dövründə ölkənin inkişaf prioritetləri barədə məlumat verilib.

## Azərbaycan həqiqətlərini dünyaya çatdıran gənclər

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Zəngilanda keçirilən Diaspor Gənclərinin 7-ci Yay Düşərgəsinin açılışı zamanı söyləyib ki, xaricdə yaşayan azərbaycanlı gənclər Azərbaycan həqiqətlərinin təbliğində mühüm rol oynayırlar.

O, xaricdə yaşayan azərbaycanlı gənclərin Azərbaycan həqiqətlərinin təbliğində və ölkəyə qarşı aparılan qarayaxma kampaniyalarına qarşı mübarizədə fəal rol oynamalı olduqlarını bildirərək deyib: "Azərbaycanın yerləşdiyi coğrafiya daim müxtəlif çağırışlarla üz-üzədir və bu səbəbdən gənclər ölkəyə qarşı yönələn təhdidlərə, yanlış məlumatlandırma cəhdlərinə qarşı hazır olmalıdırlar".

Fuad Muradov diaspor gənclərinin əsas vəzifələrindən birinin Azərbaycanın haqq səsini yaşadıqları ölkələrdə layiqincə çatdırmaq, ölkəmiz haqqında obyektiv məlumatların yayılmasına töhfə vermək olduğunu vurğulayıb.

## Builki düşərgəyə Avropada yaşayan gənclərimiz böyük maraq göstəriblər

Muradov bildirib ki, builki düşərgəyə dünyanın 64 ölkəsindən 120-dən artıq iştirakçı qatılıb: "Bu il düşərgədə iştirak üçün təxminən 700 müraciət daxil olub. Müraciətlərin əsas hissəsi xaricdə yaşayan gənclərimiz tərəfindən edilib. Fərqləndirici məqamlardan biri Avropada yaşayan gənclərimizin böyük maraq göstərmələri olub. Eyni zamanda, əvvəllər heç zaman yay düşərgəsində təmsil olunmayan ölkələrdən gənclər də bu layihəyə qoşulublar. İştirakçıların böyük əksəriyyəti ali təhsillidir. Biz istəyirik ki, həm səviyyə, həm də iştirak baxımından düşərgəmizdə hər zaman müxtəliflik təmin olunsun. İnanıram ki, bu düşərgənin gələcəkdə ən mühüm nəticələrindən biri Azərbaycan dövlətinin maraqlarının və həyata keçirdiyi layihələrin reallaşdırılmasında gənclərimizin fəal iştirak etmələri olacaq.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında salınacaq bütün yaşayış məntəqələri dayanıqlı inkişaf prinsipləri əsasında planlaşdırılıb və biz gündəlik fəaliyyətimizi də məhz bu prinsiplərə uyğun şəkildə həyata keçiririk".


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi" istiqaməti üzrə hazırlanmışdır**


## Məskunlaşma sürətlə davam edir

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev düşərgədə çıxışı zamanı bildirib ki, artıq Cəbrayıl və Zəngilan şəhərlərinə, eləcə də Horovlu, Şükürbəyli, Ağalı və Məmmədbəyli kəndlərinə sakinlərin köçü təmin olunub: "Hazırda Zəngilan və Cəbrayıl şəhərlərində məskunlaşma prosesi davam edir. Qubadlı rayonunun Mahruzlu və Zilanlı kəndlərində, Qubadlı şəhərində, eləcə də digər kənd və qəsəbələrdə tikinti, yenidənqurma layihələri intensiv şəkildə icra olunur.

Artıq həmin ərazilərdə minlərlə insan yaşayır, firavan həyat qurur və müxtəlif sahələrdə fəaliyyət göstərərək regionun sosial-iqtisadi inkişafına öz töhfəsini verir".

*Yeganə BAYRAMOVA*

# Büstü də tarix yazan şairə...



## Xan qızının doğum günüdür

Bu gün Natəvanın büstü Şuşada qürurla ətrafı seyr edir. Taleyinə həm ağır sınaqlar, həm də şərəfli bir ömür yazılmış bu zərif, eyni zamanda iradəli Azərbaycan xanımının həyat yolu doğulduğu gündən etibarən xalqın yaddaşında iz salıb. Vəfatından sonra isə adı illər boyu ehtiramla anılıb. Sonradan bürüncdə əbədiləşdirilən Natəvanın abidəsi də Şuşanın yaşadığı faciələrin rəmzinə çevrilib, işğal dövrünün ağrılarını sanki özü də yaşayıb.

Sonuncu Qarabağ xanı Mehdiqulu xanın yeganə övladı olduğu üçün onu "Dürrü yekta", yəni "Tək inci", el arasında isə "Xan qızı" çağırarmışlar. Natəvan istedadlı şairə olmaqla yanaşı, xeyriyyəçiliyi ilə də tanınıb, imkansızlara əl tutub, Şuşaya su kəməri çəkdirib. Xan qızının anadan olmasından 194 il ötür.

Xurşidbanu Natəvanla bağlı maraqlı faktlar çoxdur. Tarixçilərin ehtimalına görə, o dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmiş və Xurşidbanu Xasay xan Usmiyevlə izdivaca məcbur edilmişdi. Belə bir ehtimal da var ki, Vorontsovun şəxsi yavəri Xasay xan Tiflisdə onlara mülk iddialarında kömək göstərib və bunun müqabilində Xurşidbanuya evlənməyi təklif edib.

Xasay xanla evləndikdən sonra Natəvan dörd il övlad arzusu ilə alışıb-yanıb. Hər gün Allaha dua edən Xan qızı 1854-cü ildə əri ilə Bakıya gəlib, Şıx kəndindəki Bibiheybət məscidini ziyarət edirlər. Bu ziyarətdən bir il sonra 1855-ci ildə onların oğlu Mehdiqulu xan, 1856-cı ildə qızı Xanbikə dünyaya gəlir.

Anasının vəfatından sonra ailəsinin təkidi ilə Xasay Usmiyev vətəni Dağıstana döndüyü zaman həyat yoldaşı Xurşidbanunu da özü ilə aparmaq istəyib. Lakin Xan qızı Dağıstanda həmişəlik yaşamağı qəbul etməyib və onlar 1864-cü ildə ayrılıblar.

Natəvan 1869-cu ildə könlünə yatan Seyid Hüseyn adlı kasıb bir şuşalıya ərə gedir. Bəziləri Seyid Hüseynin Natəvanın nökəri, faytonçusu olduğunu da iddia ediblər. Dəqiq faktlar göstərir ki, Seyid Hüseyn sənətkar olub. Papaqçı idi. Bu evlilikdən də Natəvan xanımın üç oğlu dünyaya gəlib.

Onun Seyid Hüseynə ərə getməsi bəy və mülkədarları qəzəbləndirmişdi. Onlar Natəvanın ailə üzvləri arasına nifaq salır. Oğlu Mehdiqulu xan baş götürüb evdən gedir. Beləliklə, şairə ömrü boyu qınaq və töhmətlərdən yaxa qurtara bilməyib.

Seyid Hüseyndən olma oğlu Mir Abbas 17 yaşında vəfat edib. Onun ölümü Xan qızına ağır təsir etdiyindən uzun müddət Xan qızı bu ağır dərddən özünə gələ bilməyib. Oğlunun ölümündən sonra kədərli şeirlər yazmağa başlayır və özünə Natəvan, yəni zəif, gücsüz təxəllüsünü götürür.

Şəxsi münasibətlərin, dövranın haqsızlığı, zalımların sitəmi şairəni vaxtsız qocaldır, onu həyat işığına həsrət qoyur. Xəstəlik və məhrumiyyətlər, xüsusilə birinci ərindən olan övladları ilə ikinci ərindən olan uşaqları arasında torpaq-mülk ixtilafları Natəvanın onsuz da çətin olan vəziyyətini daha da ağırlaşdırır. Elə bu illərdə onun evindən xeyirxah məqsədlər üçün ayrılmış bir sandıq qızıl pul və qiymətli əşyalar oğurlanır. Bu hadisə Natəvanın Arazdan Mil düzünə çəkdirməyə başladığı arxın Kəngərli məntəqəsində yarımçıq qalmasına səbəb olur.

Şairənin həyatının son illəri daha acınacaqlı keçib. O, yaylaqlarını və yararlı torpaqlarını itirərək var-yoxdan çıxır, borca düşür. Hətta dövrü mətbuatda çıxan xəbərlərə görə o, ağır maddi çətinliklər üzündən, ev əşyalarını, zinət əşyalarını açıq satışa qoymuşdu. ( "Bakinskie quberrnckie vedomosti" qəzeti, 1896)

Bütün bu çətinliklər, maddi və mənəvi sıxıntılar nəticəsində Natəvanın xəstəliyi və daxili iztirabları getdikcə şiddətlənir və o, 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat edir. Dəfn mərasimində iştirak edən camaat, hörmət əlaməti olaraq, şairənin cənazəsini Şuşadan Ağdama qədər piyada aparıb. Xan qızı Ağdamda "İmarət" deyilən ailə qəbiristanlığında dəfn olunub.

Xurşidbanu Natəvanın şəxsiyyətinə, irsinə, yaradıcılığına Azərbaycan dövləti hər zaman sayğı bəsləyib. Natəvanın 180 illik yubileyi də dövlət səviyyəsində qeyd edilmişdi. 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdı. Bakıda Xan qızının adına kitabxana, Azərbaycan Yazıçılar Birliyində ədəbi klub fəaliyyət göstərir. Şuşa işğaldan azad edilərkən Natəvanın büstü yenidən doğma şəhərinə qaytarıldı, Xan qızı bulağı bərpa edildi. Prezident İlham Əliyev 14 mart 2022-ci il tarixində "Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.

*Yeganə BAYRAMOVA*

## Allah rəhmət eləsin!

Hidayət Orucovun ailəsi Xalq şairi **NƏRİMAN HƏSƏNZADƏNİN** vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4482
Sifariş: 1015
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova